Xüsusi ilə qeyd etmək istərdim ki, Azərbaycanın müstəqilliyi və dövlətçiliyi uğrunda vuruşan milli qüvvələrin formalaşmasında, Azərbaycan Xalq Cümhuriyyətinin birinci hökümətinin xarici siyasət

və hərbi sahədə ilk qərarlarının həyata keçirilməsində Gəncə şəhəri tarixi rol oynamışdır.
1918-ci ilin 28 mayında Tiflisdə Milli Şura tərəfindən İstiqlal Bəyannaməsinin qəbul edilməsindən iki gün sonra Azərbaycan Xalq Cümhuriyyətinin yaranması barədə məlumat Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı radioteleqrafla bütün ölkələrin xarici işlər nazirliklərinə yayılmışdır. Bu məlumatda Gəncə şəhəri yeni yaranmış dövlətin müvəqqəti paytaxtı kimi göstərilmişdir.
Mürəkkəb daxili və beynəlxalq şəraitdə yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin birinci hököməti və Milli Şurası iyun ayının 16-da Tiflisdən Gəncəyə köçmüşdür və burda milli qüvvələri səfərbər edərək, Azərbaycanın dövlət süverenliyi və ərazi bütövlüyünü təmin etməyi və, ilk növbədə, Bakını bolşevik və daşnak qüvvələrdən azad etməyi özünə başlıca məqsəd qoymuşdur. O zaman Azərbaycan dövlətçiliyini tamamı ilə rədd edən bolşevik Şaumyanın rəhbərliyi altında olan qüvvələr Bakı və onun ətraf rayonlarında azərbaycanlılara qarşı soyqırım siyasətini yürüdərək, bütün Azərbaycanda öz hakimiyyətini bərqərar etməyə çalışırdı. Bu planların qarşısını almaq və Bakını Azərbaycan xalqına və dövlətinə qaytarmaq məqsədi ilə Milli Şura Osmanlı hökumətindən hərbi yardım istəmişdi. İkitərəfli hərbi-siyasi əməkdaşlığı rəsmiləşdirmək üçün Azərbaycanın birinci hököməti 4 iyun 1918 il tarixində Tiflisdə Osmanlı hökuməti ilə dostluq müqaviləsi imzalamışdı. Bu Azərbaycan dövlətinin xarici dövlətlə imzaladığı ilk müqavilə idi.
Bu müqavilə əsasında artıq Gəncəyə gəlmiş türk ordusunun hissələri və general Ə.Şıxlinskinin komandanlığı altında olan, əsasən könüllülərdən ibarət Azərbaycanın silahlı qüvvələri birləşərək Bakı istiqamətində tarixi yürüşə başlamış, Milli Şura və Baş nazir Xan Xoyskinin hökuməti hərbi və diplomatik meydanda yüksək bacarıq göstərək, dövlətin paytaxtı Bakıda milli hakimiyyətin qurulmasına müvəffəq olmuşlar.
Xan Xoyski və onun hököməti Bakıda ali hakimiyyət hesab olunan Britaniya hərbi nümayəndəliyi ilə qarşılıqlı konstruktiv münasibətlər qurmağa nail olmuşdur. Qısa zaman ərzində Britaniya hərbi nümayəndəliyi Londona göndərdiyi məlumatlarında Bakı hökümətinin müasir dünya görüşlü insanlardan ibarət olduğunu, ölkədə inzibati sistemin və sabitliyin bərpa edilməsini bacardığını qeyd edirdi. Bunun nəticəsi olaraq, Britaniya nümayəndəliyi Azərbaycan hökümətinin bütün Azərbaycan ərazisində, o cümlədən Qarabağda, milli hakimiyyət qurmaq haqqını tanımışdı, hətta, Azərbaycan hökumətinin nümayəndələrinə Birinci Dünya müharibəsinin nəticələri üzrə keçiriləcək Paris sülh konfransına dəvət almağa yardım göstərməyi vəd etmişdir.
Milli hakimiyyətin möhkəmlənməsi, dövlət strukturları və nizami ordunun yaradılması ilə yanaşı, gənc Azərbaycan hökumətinin qarşısında duran ən vacib diplomatik vəzifə - Birinci Dünya müharibəsində qalib gəlmiş müttəfiq dövlətlər tərəfindən təşkil olunan Paris sülh konfransında iştirak etmək və Azərbaycan dövlətinin dünya birliyi tərəfindən tanınması idi.
Nəhayət, böyük çətinliklərdən sonra Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Paris sülh konfransında iştirak etmək hüququnu qazanmışdır. Habelə, 1920-ci ilin 11 yanvarında Paris sulh konfransında Azərbaycan diplomatiyası özünün ən vacib uğurunu əldə etmişdir - Versal Ali Şurasını təşkil edən müttəfiq ölkələr yekdilliklə Azərbaycan dövlətini tanımışdı. Dövlətin tanınması Azərbaycanın nümayəndə heyətinə Versal Ali Şurasının müxtəlif, o cümlədən Hökümət başçıları səviyyəsində keçirilən iclaslarında rəsmən iştirak etmək, öz hüquq və ehtiyacları haqqında danışıqlar aparmaq imkanını vermişdi. Azərbaycan nümayəndə heyəti o dövrün beynəlxalq səhnəsində həlledici təsirə malik olan məşhur siyasi xadimləri – Lloyd Corç, Klemanso, Lord Kerzon, Çerçil, Foş, Vilson və digərləri ilə Paris sülh konfransının Ali Şurasının və digər iclaslarında müzakirələr apararaq, müttəfiq dövlətlər tərəfindən Azərbaycana müxtəlif yardımın göstərilməsi haqqında qərarın qəbul edilməsinə də nail olmuşdur.
Azərbaycan Xalq Cümhuriyyətinin siyasi xadimləri və məharətli diplomatları öz fəaliyyətləri ilə Azərbaycan tarixinin ən parlaq və şərəfli səhifələrini yazmışlar. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması dünyada gedən hərbi, diplomatik və siyasi proseslərin tərkib hissəsi olaraq, eyni zamanda, müsəlman dünyasında demokratiya, vətəndaş cəmiyyəti və müasir dünyəvi dəyərlərə əsaslanan ilk respublikanın qurulması demək idi.
Bu il 28 May – Respublika gününə həsr olunmuş rəsmi qəbuldakı nitqində Prezident İlham Əliyev cənabları 91 il əvvəl müsəlman aləmində ilk dəfə demokratik respublika olaraq Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurulmasını tarixi hadisə kimi qiymətləndirmiş, Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün uzun olmadığı və iki ildən sonra respublikanın müəyyən səbəblər

üzündən süqut etdiyini təəssüflə vurğulamış, Azərbaycan xalqı və Azərbaycan dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinin, onun qurucularının fəaliyyətinə həmişə böyük hörmətlə yanaşdığını, bu tarixin bizə məxsusluğunu və ondan həmişə ibrət dərsi götürməli olduğumuzu bildirmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin yalnız 23 ay yaşamasına baxmayaraq, yeni Sovet Azərbaycanının paytaxtı Bakı və suveren ərazisi ilə Sovet İttifaqı tərkibində, formal da olsa, bərabərhüquqlu Respublika kimi saxlanılmasını bu dövrün əsas nəticəsi kimi qiymətləndirmək olar. Bakıda Sovet hakimiyyəti bərqərar olandan sonra da, Azərbaycanın bir sıra siyasi xadimləri diplomatik meydanda öz fəaliyyətini və Azərbaycanın mənafeyinin müdafiəsini davam etdirməyə müvəffəq olmuşlar.

XX əsrin sonunda Azərbaycan öz müstəqilliyini bərpa etmək üçün tarixi fürsət əldə etmiş oldu. Həmin vaxt qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayırdı. Belə bir mürəkkəb şəraitdə Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə gəlməsini tarixi əhəmiyyətli hadisə kimi qiymətləndirmək lazımdır. Ulu Öndər Heydər Əliyevin hərtərəfli fəaliyyəti nəticəsində milli dövlətçilik möhkəmləndirilmiş, daxildə siyasi sabitlik və milli birlik təmin edilmiş, dövlət quruculuğu və sosial-iqtisadi sahədə dərin islahatların aparılmasına başlanmış, habelə Azərbaycanın milli maraqlarının təmin edilməsinə yönələn xarici siyasətinin prioritet istiqamətləri müəyyənləşdirilərək onların həyata keçirilməsi təmin olunmuşdur.

Ümummilli Liderimiz Heydər Əliyevin nəhəng fəaliyyətinin nəticələrinə arxalanaraq, bu gün Azərbaycan Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında bütün sahələrdə nəzərə çarpan tərəqqi əldə etmişdir. Azərbaycan geniş Xəzər və Qara dənizləri bölgəsində baş verən strateji siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir regional liderə çevrilmişdir. Ölkəmiz xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərə çarpan və hörmət edilən ölkəyə çevrilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Ermənistan təcavüzünün nəticələrini aradan qaldırmaq istiqamətində BMT, ATƏT, Avropa Şurası, NATO və İslam Konfransı Təşkilatı çərçivəsində ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın təcavüzkar siyasətini pisləyən bir çox qətnamələr və qərarlar qəbul edilmişdir.

Diplomatik xidmət orqanlarımızın rəhbərlərinin son müşavirəsində xarici siyasətimizin uğurlu olduğunu qeyd edən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənabları daha fəal xarici siyasət fəaliyyəti həyata keçirilməsinin vacibliyini vurğulamış və müvafiq göstərişlər vermişdir. Hazırda Azərbaycan diplomatik xidmət oranları bu göstərişlərin həyata keçirilməsi istiqamətində fəaliyyətinin davam etdirir.

Sözümü bitirərək, Azərbaycan diplomatiyasının 90-cı ildönümünü qeyd etdiyimiz bu əlamətdar gündə sizin hamınıza doğma diyarımızın çiçəklənməsi naminə daha böyük müvəffəqiyyətlər arzulayıram.

Eyni zamanda, fürsətdən istifadə edərək bir daha başda Eldar Əzizov olmaqla Gəncə şəhər İcra Hakimiyyətinə və gəncəlilərə qonaqpərvərliyə və diqqətə görə təşəkkürümü bildirirəm.

Journal of the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan

**Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş konfransda çıxışı**

Naxçıvan, 7 iyul 2009-cu il



Hörmətli Vasif müəllim,
Əziz naxçıvanlılar,

Bu gün Azərbaycan dövlətinin çoxəsrlik tarixinin vacib siyasi və mədəni mərkəzlərindən biri olan, ulu Naxçıvanda olmağımdan və sizinlə birlikdə Azərbaycan diplomatiyasının 90-cı ildönümünə həsr olunmuş konfransda iştirak etməyimdən məmnunam.
İlk növbədə səmimi qonaqpərvərlik və iclasın yüksək səviyyədə təşkilinə görə Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və bütün naxçıvanlılara Xarici İşlər Nazirliyinin nümayəndə heyəti adından dərin təşəkkürümü bildirmək istərdim.

Naxçıvan hamımız üçün doğma bir diyardır. Bu diyar Azərbaycanımıza Heydər Əliyev kimi dövlət xadimi, dahi tarixi şəxsiyyət bəxş etmişdir. Məhz Ulu Öndər Heydər Əliyev çox mürəkkəb və ağır şəraitdə Naxçıvana rəhbərlik edərək Azərbaycan üçün strateji əhəmiyyətə malik bu bölgənin qorunmasını və təhlükəsizliyini təmin etmişdir. Bizim hər birimiz Ümummilli Liderimizin bu xidmətləri ilə fəxr edir və qürur hissi keçiririk.
Bu gün Naxçıvanda böyük tərəqqinin, genişmiqyaslı abadlıq işlərinin, firavanlığın şahidi oluruq. Bu işlər, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və onun layiqli davamçısı Prezident İlham Əliyev cənabları tərəfindən uğurla davam etdirilən məqsədyönlü siyasət nəticəsində əldə olunmuş hərtərəfli inkişafın tərkib hissəsidir.

Hörmətli iclas iştirakçıları,

Azərbaycan diplomatiyasının 90-cı ildönümü deyəndə biz dövlətimizin peşəkar diplomatik xidmətinin məhz 9 iyul 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin Katibliyinə dair qərarın qəbul edilməsindən ötən müddəti nəzərdə tuturuq. Bildiyiniz kimi, bu tarixi fakt əsasında Prezident İlham Əliyev cənablarının 24 avqust 2007-ci il tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı elan edilmişdir.
Bugünkü Azərbaycan dövlətçiliyinin kökləri müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlıdır. Naxçıvan diyarı Azərbaycanın müstəqilliyi və dövlətçiliyi uğrunda vuruşan milli qüvvələrin formalaşması mərkəzlərindən biri olmuşdur. Naxçıvan torpağının yetirmələri olan Azərbaycan Xalq Cümhuriyyətinin parlament və hökumətinin üzvləri Həmid ağa Şaxtatinski və İbrahim Əbilov kimi siyasi xadimlər onun daxili siyasətində və diplomatiyasının həyata keçirilməsində fəal iştirak etmişlər. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin hərbi-siyasi imkanlarının çox məhdud olmasına baxmayaraq, onun daxili və xarici siyasətində Naxçıvan həmişə diqqət mərkəzində olmuşdur. Birinci dünya müharibəsinin cəbhə bölgəsinə yaxın olduğuna görə Naxçıvan torpağı, erməni daşnaq qüvvələrinin uzun müddət ərzində mütəmadi təcavüzünə məruz qalmışdır. Bütün bunlara baxmayaraq, Naxçıvan camaatı milli yerli hakimiyyət qurumlarını yaradaraq, erməni qüvvələrinə qarşı müdafiə təşkil etmiş və onların qəddar planlarını pozmuşlar.
Bakıda Sovet hakimiyyəti bərqərar olandan sonra da Azərbaycanın bir sıra siyasi xadimləri diplomatik meydanda öz fəaliyyətini və Azərbaycanın mənafeyinin müdafiəsini davam etməyə müvəffəq olmuşdurlar. Naxçıvan torpağının yetirmələri İbrahim Əbilov və Behbud

ağa Şahtaxtinski Azərbaycan diplomatları kimi Rusiya, Türkiyə, Azərbaycan və Ermənistan arasında dövlət münasibətlərinin və sərhədlərin tənzimlənməsində fəal iştirak etmişlər. Sovet-Türkiyə danışıqlarında Azərbaycan nümayəndə heyətinin başçısı Şahtaxtinski ilə birlikdə Əbilov Naxçıvan muxtariyyətini və sərhədlərini müəyyən edən 1921-ci il Moskva və Qars müqavilələrini imzalamışlar. Habelə, Əbilov Sovet Azərbaycanın Türkiyədə səfiri və 1921-ci ildən Zaqafqaziya Federativ Respublikasının Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuşdur. O, Azərbaycan-Türkiyə dostluq münasibətlərinin möhkəmləndirilməsində böyük rol oynamış və Türkiyə Cümhuriyyətində ilk islahatların həyata keçirilməsində Mustafa Kamalın yaxın məsləhətçilərindən biri olmuşdur.
Sovet İttifaqı dövründə müstəqillikdən məhrum olmuş Azərbaycan SSRİ ali təhsil qurumları və diplomatik xidmət orqanlarının imkanlarından faydalanaraq milli diplomatik kadrların yetişdirilməsinə nail olmuşdur. Xüsusilə də, Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli kadr və mütəxəssislərin hazırlanması və müxtəlif sahələrdə irəliləməsi daha sistemli şəkildə həyata keçirilmişdir. Bütün dünyanı əhatə edən Sovet diplomatik xidmət qurumlarında və çoxtərəfli xarici siyasətində, əsas etibarilə Yaxın və Orta Şərq istiqamətində azərbaycanlı diplomatlar və müxtəlif sahələr üzrə mütəxəssislər fəal iştirak etmiş, İran, Türkiyə, Əfqanıstan, İraq və digər ərəb ölkələrində yüksək səviyyəli fəaliyyətləri ilə fərqlənmişlər.
Məhz bu illərdə formalaşmış kadr potensialı bu gün bizə müstəqil diplomatik fəaliyyətimizi genişləndirməyə, bir çox ölkələrdə və təşkilatlarda səfirlik və nümayəndəliklər açmağa imkan verir. Bu dövrün ən vacib xüsusiyyəti isə ondan ibarətdir ki, Sovet İttifaqında ümumi durğunluğun olmasına baxmayaraq, məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda milli şüurun dirçəlməsi sahəsində, o cümlədən milli tarix və mədəniyyətə aid tədqiqat və fəaliyyətin xeyli çoxalması, milli iqtisadiyyat və elmin inkişaf etdirilməsində böyük işlər görülmüşdür. Bu geniş əhatəli nailiyyətlər Azərbaycanın yeni mərhələdə müstəqilliyə hazır olması üçün zəruri potensial yaratmışdır.
Beləliklə, 1991-ci ildə Sovet İttifaqının dağılması ilə yeni yaranmış müstəqil dövlətlər arasında Azərbaycan müstəqil dövlət kimi inkişaf etməyə qadir olan ölkələrdən biri idi.
XX əsrin sonunda Azərbaycan öz müstəqilliyini bərpa etmək üçün tarixi fürsət əldə etmiş oldu. Həmin vaxt qonşu Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və daxili qeyri-sabitliyin hökm sürdüyü Azərbaycan öz tarixinin ən mürəkkəb dövrlərindən birini yaşayırdı. Belə bir mürəkkəb şəraitdə Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın rəhbərliyinə gəlməsi tarixi əhəmiyyətli hadisə idi. Ümummilli Lider Heydər Əliyevin hərtərəfli fəaliyyəti nəticəsində milli dövlətçilik möhkəmləndirilmiş, daxildə siyasi sabitlik və milli birlik təmin edilmiş, dövlət quruculuğu və sosial-iqtisadi sahədə dərin islahatların aparılmasına başlanmışdır.
Məhz ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın milli maraqlarının təmin edilməsinə yönələn xarici siyasətinin prioritet istiqamətləri müəyyənləşdirilmiş və onların həyata keçirilməsi təmin olunmuşdur. Böyük diplomatik məharət tələb edən uğurlu neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın dünya birliyində geosiyasi əhəmiyyəti xeyli artmış, ölkəmizin ətrafında daha əlverişli strateji reallıq əmələ gəlmişdir. Fəal xarici siyasətin nəticəsi olaraq, dünya dövlətlərinin və beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi istiqamətində səyləri gücləndirilmişdir.
Ümummilli Lider Heydər Əliyevin nəhəng fəaliyyətinin nəticələrinə arxalanaraq, onun layiqli davamçısı Prezident İlham Əliyev cənablarının rəhbərliyi altında Azərbaycan siyasi və sosial-iqtisadi, hərbi və enerji strategiyası sahələrində yeni nəzərə çarpan tərəqqi əldə etmişdir.
Azərbaycan ətrafda olan geniş bölgədə baş verən strateji siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilmişdir. Azərbaycanın siyasi və iqtisadi qüdrəti, strateji coğrafi mövqeyi, zəngin təbii ehtiyatları xarici siyasət prioritetlərinin təmin olunmasında böyük əhəmiyyətə malikdir. Azərbaycan öz milli mənafeyinə uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə sabit münasibətlər və qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Ölkəmiz xarici əlaqələrinin coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmiş, beynəlxalq aləmdə daha çox nəzərə çarpan və hörmət edilən ölkəyə çevrilmiş və xarici siyasət məqsədlərini daha da təkmilləşdirmişdir. Avstraliya istisna olmaqla, bizim bu gün dünyanın bütün qitələrində diplomatik nümayəndəliklərimiz mövcuddur.
Ermənistan təcavüzünün nəticələrini aradan qaldırmaq istiqamətində fəaliyyətini gücləndirərək,

Azərbaycan diplomatiyası BMT, ATƏT, Avropa Şurası, NATO, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatlar çərçivəsində ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən və Ermənistanın təcavüzkar siyasətini pisləyən bir çox qətnamələr və qərarların qəbul edilməsinə nail olmuşdur. Biz Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə, Minsk qrupu həmsədrlərinin vasitəçilik yardımı əsasında həll edilməsi istiqamətində səylərimizi davam etdiririk. Azərbaycanın mövqeyi birmənalıdır, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüquq prinsipləri, o cümlədən Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həll oluna bilər.

Müstəqilliyimizin bərpa olunmasından sonra keçən on səkkiz il ərzində Azərbaycanın xarici siyasət strategiyasının uğurlu olmasının sübutu ondan ibarətdir ki, bu dövr ərzində ölkəmiz daim dəyişən beynəlxalq mühitə uyğunlaşmaqla yanaşı, eyni zamanda regional liderə və beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilmişdir. Ölkəmiz bütün regional məsələlərdə əsas oyunçudur və regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycansız gerçəkləşə bilməz.

Diplomatik xidmət orqanlarımızın rəhbərlərinin son müşavirəsində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev cənablarının qeyd etdiyi kimi xarici siyasətimiz bütün istiqamətlərdə uğurludur, biz işimizi məhz bu istiqamətdə davam etdirəcəyik və xarici siyasət fəaliyyətimizdə fəal olmalıyıq. Bu gün Azərbaycan diplomatik xidməti Möhtərəm cənab Prezidentin göstərişlərinə uyğun olaraq xarici siyasət prioritetlərimizin təmin olunması istiqamətində fəaliyyətini davam etdirir.

Sözümü bitirərək, Azərbaycan diplomatiyasının 90-cı ildönümünü qeyd etdiyimiz bu əlamətdar gündə sizin hamınıza doğma diyarımızın çiçəklənməsi naminə daha böyük müvəffəqiyyətlər arzulayıram.

Eyni zamanda, fürsətdən istifadə edərək başda Vasif Talıbov olmaqla Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə və naxçıvanlılara qonaqpərvərliyə və diqqətə görə bir daha təşəkkürümü bildirirəm.

## Azərbaycan Respublikasının Xarici İşlər Naziri cənab Elmar Məmmədyarovun Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş mərasimdə çıxışı

Bakı, 9 iyul 2009-cu il



Hörmətli xanımlar və cənablar,
Hörmətli nazirlər, səfirlər, baş konsullar,
Əziz qonaqlar və həmkarlar,

Bu gün bu möhtəşəm sarayda Azərbaycan Diplomatik Xidmətinin 90 illik yubileyinə həsr olunmuş tədbirlərin yekunu olan bu ziyafətdə sizləri salamlamaqdan məmnunam.

Azərbaycan diplomatiyasının 90-cı ildönümü deyəndə biz dövlətimizin peşəkar diplomatik xidmətinin məhz 9 iyul 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin Katibliyinə dair qərarın qəbul edilməsindən ötən müddəti nəzərdə tuturuq.

Ümummilli Liderimiz Heydər Əliyev 1918-1920-ci illərin Azərbaycan Xalq Cümhuriyyəti tarixinə xüsusi diqqətlə yanaşırdı. Onun fərmanı əsasında Azərbaycan xarici siyasət sənədləri toplusu da daxil olmaqla, ilk dəfə olaraq, Azərbaycan Xalq Cümhuriyyətinin dövlətinə aid bütün sənədlər nəşr edilmişdir.

Bu tarixi fakt əsasında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 avqust 2007-ci il tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı elan edilmişdir. Bu qərar Möhtərəm Prezidentimizin Azərbaycanın diplomatik xidmətinə və onun əməkdaşlarına göstərdiyi diqqət və qayğının nümunəsidir.

Azərbaycanın peşəkar diplomatik xidməti ötən 90 il ərzində şərəfli yol keçmişdir. Xüsusilə, müstəqilliyimizin bərpasından sonra Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş və milli maraqlarımıza uyğun xarici siyasətin həyata keçirilməsinə başlanmışdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan diplomatiyası uğurla davam etdirilir. Ölkəmiz beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirmiş, regionun liderinə çevrilmişdir.

Əminik ki, Azərbaycan diplomatiyasının uğurları davamlı olacaqdır. Biz Möhtərəm Prezidentimizin rəhbərliyi ilə xarici siyasətimizin bütün istiqamətlərində yüksək nailiyyətlər əldə edəcəyik, xüsusilə də diplomatiyamız üçün ən prioritet məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində səylərimizi daha da artıracağıq.

Sizləri diplomatiyamızın 90 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir və hamınıza uğurlar arzulayıram.

Təşəkkür edirəm.

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

# Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümü ilə əlaqədar keçirilmiş silsilə tədbirlər



Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar AR-in Xarici İşlər Nazirliyinin nümayəndə heyətinin Şəhidlər Xiyabanını ziyarəti



Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar AR-in Xarici İşlər Nazirliyinin muzeyinin açılışı





Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin başçıları ilə AR XİN-nin binası qarşısında birgə foto şəkil

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinin yerləşdiyi binada xatirə lövhəsinin açılışı



Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar Naxçıvan şəhərinə səfər etmiş AR-in Diplomatik Nümayəndəliklərinin başçıları ilə Naxçıvan Xarici İşlər Nazirliyinin binası qarşısında birgə foto şəkil



Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar Gəncəyə səfər etmiş AR-in Diplomatik Nümayəndəliklərinin başçılarının iştirakı ilə keçirilmiş iclas



Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar Naxçıvana səfər etmiş AR-in Diplomatik Nümayəndəliklərinin başçılarının iştirakı ilə keçirilmiş iclas




Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar "Azərbaycan Qlobal Siyasətində Xarici Siyasətin Formalaşması" adlı Bakıda keçirilmiş beynəlxalq konfrans



Azərbaycan diplomatiyasının 90 illiyi ilə əlaqədar Bakıda keçirilmiş ziyafət

**Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri Vasif Talıbovun Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş konfransda çıxışı**

Naxçıvan, 7 iyul 2009-cu il



Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə keçirilən tədbirin hörmətli iştirakçıları!

Bugünkü konfrans əlamətdar bir dövrdə keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə hər il iyul ayının 9-u Azərbaycanda diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd olunur. Bu il eyni zamanda Azərbaycan Respublikasında diplomatik xidmətin 90 illiyi qeyd edilir.
Qarşıdan gələn peşə bayramınız və diplomatik xidmətin 90 illiyi münasibəti ilə Sizi səmimi qəlbdən təbrik edir, ölkəmizin milli maraqlarının qorunması kimi olduqca vacib, şərəfli və məsuliyyətli işdə uğurlar arzulayıram.
Hər bir ölkənin diplomatiyası o ölkənin qürur mənbəyidir. Milli dövlətçiliyi və dövlət sərhədləri olan ölkələr istər-istəməz beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilirlər. Bu mənada diplomatiya dövlətçiliklə birbaşa bağlıdır və ondan kənarda ölkələrarası münasibətlər mümkün deyil.
Qədim dövlətçilik ənənələrinə malik olan digər dövlətlər kimi, Azərbaycanın da beynəlxalq münasibətlər və diplomatiya tarixi olduqca zəngindir. Qədim Azərbaycan dövlətləri olan Ağqoyunlu və Səfəvilərin Azərbaycan diplomatiyasının inkişafında xidmətləri böyükdür. Bu dövlətlərin Vatikan, Venesiya və Macarıstan kimi nüfuzlu dövlətlərlə münasibətləri diplomatiya tariximizin "qızıl fondu"na daxil olmuşdur.
Azərbaycanın Naxçıvan diyarı da ən qədim dövrlərdən başlayaraq böyük dövlətlərin maraq dairəsində olmuşdur. 5 min illik tarixə və şəhər mədəniyyətinə malik Naxçıvan bir yandan geostrateji mövqeyi və zəngin təbii sərvətləri ilə fatehlərin diqqətini özünə cəlb edirdisə, digər tərəfdən əlverişli tranzit imkanlarına malik olması, Böyük İpək Yolunun üzərində yerləşməsi səbəbindən ölkələr və regionlararası maraqların kəsişdiyi əraziyə çevrilmişdi. Bütün bunlar isə qədim Naxçıvanı hərbi və siyasi diplomatiya müstəvisinə çıxarmışdı. Naxçıvan şəhəri bizim eranın onuncu əsrində Naxçıvan şahlığının, on ikinci əsrdə qüdrətli Atabəylər dövlətinin, on səkkizinci əsrdə siyasi səhnədə əhəmiyyətli rol oynayan Naxçıvan xanlığının, 1918-ci ildə 1 milyondan artıq əhaliyə malik Araz-Türk Respublikasının paytaxtı olmuş, Azərbaycan dövlətçiliyinin, siyasi və diplomatik münasibətlər sisteminin formalaşmasında mühüm mərhələ təşkil etmişdir.
Naxçıvanın muxtariyyət əldə etməsindən sonra formalaşmış xarici dövlətlərlə əlaqələr sahəsində təcrübəsi Azərbaycan dövlətçiliyinin daha da zənginləşməsinə xidmət etmişdir.
Ötən əsrin 20-ci illərində Azərbaycanın himayəsi altında muxtariyyət qazanmış Naxçıvanın Maku, Xoy və Təbrizdə konsulluqları, Bakı, Tiflis və İrəvanda nümayəndəlikləri yaradılmış, Rusiya Federasiyasının Qarsdakı konsulluğu yanında müvəkkilliyi təşkil olunmuşdur. 1924-cü ilədək Naxçıvanda Türkiyənin hərbi nümayəndəliyi, 1938-ci ilədək isə İranın konsulluğu fəaliyyət göstərmişdir.
Tarixə nəzər salsaq, aydın görmək mümkündür ki, Naxçıvan ərazisində yaradılmış dövlət qurumlarının, həyata keçirilən diplomatik fəaliyyətin yalnız bir məqsədi olmuşdur: min illər boyu Azərbaycan türklərinin vətəni olan bu qədim ərazinin Azərbaycana məxsusluğunu, Azərbaycan dilini, milli-mənəvi dəyərlərini və Azərbaycan dövlətçiliyini qoruyub-saxlamaq, xalqımızın birliyini və bütövlüyünü təmin etmək. Xarakterikdir ki, bu missiya təkcə dövlət xadimlərinin yox, eyni zamanda geniş xalq kütlələrinin də iştirakı ilə həyata keçirilmiş, özünəməxsus "xalq diplomatiyası" yaranaraq formalaşmışdır.
Ötən əsrin 20-ci illərində Amerika, İngiltərə və Rusiya kimi böyük dövlətlərin mövqeyinin əksinə olaraq Naxçıvan əhalisinin siyasi iradəsi nəticəsində bu diyarın Azərbaycanın tərkibində muxtar respublika kimi qorunub saxlanması xalqın iradəsinin, "xalq diplomatiyası"nın tarixdə

oynadığı rolun əyani ifadəsidir. Aparılmış siyasi və diplomatik səylərin nəticəsi olaraq 1921-ci ildə imzalanmış 2 mühüm beynəlxalq sənəddə - Moskva və Qars müqavilələrində Naxçıvanın muxtariyyət hüququnun tanınması, Naxçıvan Muxtar Respublikasının ərazisinin təsdiq olunması və beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququnun təsbit edilməsi gənc Azərbaycan diplomatiyasının şəksiz qələbəsi idi.

Azərbaycan tarixi xalqımızın taleyində əhəmiyyətli rol oynayan bu cür diplomatik nailiyyətlərlə zəngin olduğu kimi, görkəmli diplomatlar nəslinin formalaşması ilə də zəngindir. Qüdrətli Azərbaycan Atabəylər dövlətinin İraq sultanlığı, bu hakimiyyətin rəqibləri olan Marağa və Rey hakimləri ilə münaqişələrini böyük təcrübə və müdrikliklə aradan qaldıran Möminə xatın, qadın siyasətçi kimi on ikinci əsr Azərbaycan diplomatiyası tarixində özünə şərəfli yer tutmuşdur. Naxçıvan xanlarından Heydərqulu xan, Abbasqulu xan və Cəfərqulu xan xanlığın xarici siyasətinə bilavasitə rəhbərlik etmiş, birinci Kalbalı xan isə on səkkizinci əsrin nüfuzlu siyasi lideri və diplomatı kimi məşhurlaşmışdır.

Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının xarici işlər naziri Bəhram xan Naxçıvanski təmsil etdiyi dövlətin ərazisinin qorunması uğrunda fəal mübarizə aparmış, işğalçı ermənilərə qarşı döyüşdə şəhid olmuşdur.

Ötən əsrin 20-ci illərində Naxçıvanda Behbud bəy Şahtaxtinski, İbrahim Əbilov kimi diplomatlar yetişmişdir. Behbud bəy Şahtaxtinskinin fəaliyyəti ağır vəziyyətdə diplomatiyanın mümkün olmayanı mümkün etmək prinsipinə ən gözəl nümunədir. Moskva və Qars müqavilələrinin xalqımızın milli maraqlarına uyğun şəkildə bağlanması, hər şeydən əvvəl onun diplomat bacarığı hesabına mümkün olmuşdur.

Göründüyü kimi, diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Xarici siyasət üzrə mütəxəssislərin fikrincə, "diplomatiya - dövlətlərin xarici siyasətinin həyata keçirilməsi üçün vasitə olub, konkret şərait və yerinə yetirilən vəzifələrin xarakteri nəzərə alınmaqla tətbiq edilən qeyri-hərbi praktik tədbirlərin, üsul və metodların məcmusudur". Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar. Bu fikrin təsdiqi kimi ötən əsrin 90-cı illərində Azərbaycanın düşdüyü vəziyyəti göz önünə gətirmək kifayətdir.

Bu dövrdə nə baş verirdi? Dünyada gedən qlobal proseslər, Sovetlər Birliyinin dağılması, Varşava Müqaviləsi Təşkilatının buraxılması planetimizin siyasi mənzərəsini ciddi şəkildə dəyişdirmiş, keçmiş SSRİ məkanında meydana çıxmış yeni müstəqil dövlətlər birbaşa beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilmişdilər. Bir sıra dövlətlər bu münasibətləri milli maraqlara uyğunlaşdırmaq xətti götürdüyü halda, Azərbaycanın siyasi rəhbərliyi birtərəfli qaydada ölkənin xarici siyasətini imperiya qüvvələrinin maraqlarına uyğunlaşdırmaq yolunu tutmuşdu. Bununla da dövlətin suveren hüquqlarının qorunmasına beynəlxalq təminat heçə endirilmişdi.

Xalq Cəbhəsi-Müsavat cütlüyünün xarici siyasət kursu da ayrı-ayrı vəzifəli şəxslərin bir-birini təkzib edən təsadüfi bəyanatları ilə yadda qalmışdı. "Bizimlə müharibə vəziyyətində olan dövlətə atom zərbəsi endirmək", "Çinə türk bayrağı sancmaq" kimi məsuliyyətsiz çağırışlar xarici siyasətin ali məqsədi barədə yanlış rəy doğurmaqla ölkəmizin beynəlxalq imicini ciddi zərbə altında qoymuşdu. Nəticə nə oldu? Azərbaycan təkləndi. Ölkə ərazisinin 20 faizinin işğalı və Naxçıvan Muxtar Respublikasının tam blokada vəziyyətinə düşməsi faktına beynəlxalq birlik lazımi reaksiya vermədi, Azərbaycana qarşı ədalətsiz "907-ci düzəliş" tətbiq olundu.

Bundan fərqli olaraq həmin dövrdə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi ulu öndər Heydər Əliyev xarici dövlətlərlə münasibətdə qonşuluq prinsipinin əsaslarını yaradaraq tətbiq etdi, İran və Türkiyə ilə mehriban münasibətlər quruldu, Araz çayı üzərində Şahtaxtı-Poldəşt, Sədərək-Dilucu körpüləri salındı. Sadələşdirilmiş rejimdə işləyən yeni sərhəd-keçid məntəqələri yaradıldı. İranın və Türkiyənin Naxçıvan Muxtar Respublikasında konsulluqları fəaliyyətə başladı. O dövrdə tətbiq olunan düzgün siyasi xətt Naxçıvanın işğalının qarşısını alırdısa, son dərəcə ağır blokada şəraitində burada yaşayışı və inkişafı təmin edirdisə, yarıtmaz xarici siyasət Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu sual altında qoyurdu.

Azərbaycan diplomatiyası yenidən təşkilatlanmasına və əldə etdiyi ciddi nailiyyətlərə görə ümummilli lider Heydər Əliyevə borcludur. Böyük dövlət xadiminin ikinci dəfə ali hakimiyyətə qayıdışı ilə ölkəmizin təklənməsinə səbəb olan kortəbii xarici siyasətə son qoyuldu. Mehriban qonşuluq münasibətlərinin və tarazlaşdırılmış xarici siyasətin tətbiqi Azərbaycanı beynəlxalq birliyin və Avropa ailəsinin nüfuzlu üzvünə çevirdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin xarici siyasətinin başlıca vəzifələrini və istiqamətlərini müəyyənləşdirərək demişdir: "Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəlməlidir. Vəzifəmiz dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqeyini möhkəmləndirmək üçün, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir".

Möhtərəm Heydər Əliyev Azərbaycanın həmsərhəd və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla iqtisadi, ticarət, elmi-texniki və mədəni münasibətlərinin genişlənməsinə, Naxçıvan Muxtar Respublikasının da bu münasibətlərdə iştirakına mühüm diqqət yetirirdi. Onun bilavasitə tapşırığı ilə 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq Məntəqəsi fəaliyyətə başlamış, bir il sonra bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq idarəsi yaradılmışdır.

Eyni zamanda, ulu öndər Heydər Əliyevin 1992-ci il fevralın 24-də qəbul etdiyi qərara əsasən Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində nümayəndəliyi təsis edilmişdir. 2002-ci il oktyabr ayının 10-da Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəliyinin yeni binasının açılış mərasimində iştirak və çıxış edən ümummilli liderimiz demişdir: "Mən son vaxtlar Naxçıvanın inkişafı ilə əlaqədar bəzi tədbirlər həyata keçirmək barədə qərarlar vermişəm. Bunlar lazımdır. Nə üçün? çünki Naxçıvanın vəziyyəti, onun coğrafi vəziyyəti və Naxçıvana qarşı ermənilərin daimi ərazi iddiası Naxçıvanı xüsusi inkişaf etdirmək məsələsini qarşımıza qoyur. Naxçıvan Azərbaycanın ən qədim torpaqlarından biridir. Naxçıvanda Azərbaycanın milli mədəniyyətini, memarlığını, rəssamlığını nümayiş etdirən abidələr vardır.

Biz Azərbaycanın xüsusi ağır şəraitdə olan bir hissəsini gərək o qədər inkişaf etdirək ki, oradakı problemlər insanları narahat etməsin. Həmin insanlar orada daim yaşasınlar. Azərbaycan torpağını qorusunlar, saxlasınlar. Bax, bunlara görə bu qərarlar qəbul olunmuşdur".

Ulu rəhbərimizin siyasi xəttini davam etdirən hörmətli Prezidentimiz İlham Əliyevin 2005-ci il 31 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi təşkil olunmuş və İdarənin Əsasnaməsi təsdiq edilmişdir. Həmin Əsasnamə ilə İdarəyə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq vəzifə və funksiyalarının Naxçıvan Muxtar Respublikasında fasiləsiz və ardıcıl həyata keçirilməsi tapşırılmışdır.

Ötən il Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yeni inzibati binasının açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin şəxsən iştirak etməsi, bu il isə Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibəti ilə konfransın Naxçıvanda keçirilməsi barədə tapşırıq verməsi, Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi barədə sərəncam imzalaması muxtar respublikanın tarixi keçmişinə, Azərbaycan diplomatiyası və dövlətçilik tarixində oynadığı müstəsna rola verilən yüksək qiymətin əyani ifadəsidir.

Bu yüksək qayğıya və diqqətə görə ölkə rəhbəri hörmətli İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli konfrans iştirakçıları!

90 illik yubiley çərçivəsində keçirilən tədbirdə diplomatik xidmət orqanları rəhbərlərinin, səfir və konsulların iştirakı 1991-ci ildən Ermənistan Respublikasının işğalçılıq siyasəti nəticəsində blokada şəraitində yaşayan muxtar respublikanın üzləşdiyi problemləri bilavasitə yerindəcə müşahidə etmək və beynəlxalq aləmə həqiqəti çatdırmaq imkanı yaradacaqdır.

Sizin bu imkanlardan məqsədyönlü şəkildə yararlanacağınıza əminliyimi ifadə edir, çıxışımı Azərbaycan Prezidenti cənab İlham Əliyevin aşağıdakı fikirləri ilə tamamlayıram: "Biz bütün sahələrdə görürük ki, Azərbaycanın inkişafı, güclü dövlətə çevrilməsi artıq reallıqdır. Biz çalışmalıyıq ki, bunu daha da sürətlə həyata keçirək, öz maraqlarımızı tam şəkildə müdafiə edək.

Elə edək ki, Azərbaycanın xarici siyasəti Azərbaycanı qorusun, Azərbaycanın qarşısında, elə bil, qalxan kimi dayansın ki, ölkəmiz inkişaf etsin. Ölkə öz istəyinə nail olsun və insanlar daha da yaxşı yaşasınlar. Budur siyasətimizin əsas istiqamətləri".

Diplomatik xidmət korpusunun bütün əməkdaşlarını bir daha yubiley münasibəti ilə təbrik edir, ölkə Prezidentinin müəyyənləşdirdiyi vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıram.

Sağ olun!

## Azərbaycan Respublikasının Macarıstandakı səfiri Həsən Həsənovun Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş konfransda çıxışı

Gəncə, 6 iyul 2009-cu il



Hörmətli cənab Nazir,
Hörmətli cənab Gəncə İcra Hakimiyyətinin başçısı,
Hörmətli cənab Səfirlər,
Hörmətli Gəncəlilər,
Hörmətli xanımlar və cənablar,

Biz bu gün tariximizin ən mühüm hadisələrindən birini - Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyini qeyd edirik.
Prezidentimiz cənab İlham Əliyevin Azərbaycan diplomatları ilə mütəmadi keçirdiyi görüşlərində, xarici siyasətlə bağlı çıxış və bəyanatlarında qoyduğu vəzifələr diplomatlarımızın fəaliyyətinin ana xəttini təşkil edir.

Bu müqabildə Diplomatik xidmət orqanları gününün və 90 illik yubiley tədbirlərinin belə yüksək səviyyədə və özünəməxsus formada təşkili, diplomatik xidmətimizə göstərdiyi qayğı və diqqətinə, diplomatlarımızın fəaliyyətinin yüksək qiymətləndirilməsinə görə hörmətli həmkarlarım adından Möhtərəm cənab Prezidentimiz İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.
Azərbaycanın diplomatiya ənənəsinin tarixi çox qədimdir. Minilliklərlə qurulmuş Azərbaycan dövlətləri xarici ölkələrlə siyasi, hərbi, ticari əlaqələrini həyata keçirmək üçün qurumlar yaratmışlar. Həmin ənənələrin davamı olaraq Azərbaycan Xalq Cümhuriyyəti, 1919-cu ildə müasir tipli Diplomatik xidməti həyata keçirən rəsmi struktur olan Azərbaycan Xarici İşlər Nazirliyini yaratdı.
90 il ərzində Azərbaycan diplomatik xidmətinin necə çətin və şərəfli bir inkişaf yolu keçdiyi göz qabağındadır.
1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulan kimi Azərbaycan dövlətçiliyinin qorunması və dünyaya tanıdılması kimi şərəfli və məsuliyyətli tarixi missiyanı boyunlarına götürən Respublikamızın yeni formalaşan diplomatları ölkəmizi tanıtmaq istiqamətində var qüvvələrini əsirgəməmişlər. Əlimərdan bəy Topçubaşovun rəhbərliyi ilə Versal Sülh Konfrasında Azərbaycanın müstəqilliyinin tanınması yolunda fədakarcasına çalışan diplomatlarımızın tarixi xidmətlərini bu gün xüsusi qeyd etməliyik.
Sovet hakimiyyətinin ilk illərində xarici əlaqələrimizin xəttini müəyyənləşdirən, Nəriman Nərimanovun səyləri nəticəsində, Azərbaycan Rusiya və Türkiyə arasında əlaqələndirici missiyanı öz üzərinə götürmüş, taleyüklü sənədlər imzalanmışdır. Məlum təzyiqlərə baxmayaraq, Naxçıvan, Dağlıq Qarabağ və Zaqatala Azərbaycanın tərkibində qalmaqla dövlət sərhədləri müəyyənləşdirilmişdir. Rusiya kommunistləri ilə erməni daşnaklarının Azərbaycandan ayırmaq istədiyi Bakının Sovet Azərbaycanın tərkibində qalması və paytaxt olması da bu dövrdə dönməz xarakter almışdır. Sovet hakimiyyətinin ilk illərində Azərbaycan türk dünyası və bütün şərqdə gedən ictimai-siyasi proseslərin əsas mərkəzlərindən biri olmuş, Bakıda keçirilmiş Türkoloji və Şərq Xalqları Qurultayları bütün müsəlman - şərq və türk dünyasının tarixində silinməz iz buraxmışdır.
Sevindirici haldır ki, Azərbaycan Türkiyə əlaqələri tarixin bütün mərhələlərində, sınaqlardan uğurla çıxmış və müasir dövrümüzdə ulu öndərimiz Heydər Əliyev demişkən "Bir millət, iki dövlət" prinsipi ilə yüksələn istiqamətlə inkişaf edir.
Sovet hakimiyyətinin 70-80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin səyləri nəticəsində xarici ölkələrdə Azərbaycan Mədəniyyəti və İqtisadiyyatı Günləri təşkil edilmiş, Azərbaycan radiosu xarici dillərdə xarici ölkələrlə yayımlanmağa başlamış, alim və ədiblərimizin əsərləri xarici dillərdə nəşr edilmişdir. Bu illərdə Azərbaycanda siyasi, elm, mədəniyyət, iqtisadiyyat və digər mövzularda bir sıra irimiqyaslı beynəlxalq tədbirlər keçirilmiş, bunlarda minlərlə xarici iştirak edərək Azərbaycanla əyani tanış olmuşlar.

Azadlıq və müstəqilliyə can atan xalqımız ötən əsrin 80-ci illərinin ikinci yarısında qanlı maneələrə baxmayaraq azadlıq uğrunda mübarizəyə başladı, öz haqq səsini dünyaya çatdırmağa çalışdı. Böyük zəhmət və qurbanlar hesabına müstəqilliyimiz əldə olundu. Ancaq onu möhkəmləndirmək əvəzinə, Azərbaycanda daxili qarşıdurma, siyasi ambisiyalar uğrunda amansız mübarizə aparıldı. Xalq yeganə çıxış yolu olaraq üzünü ulu öndər Heydər Əliyevə tutdu. Heydər Əliyev müstəqilliyimizə, dövlətçiliyimizə yeni nəfəs gətirdi. Onun yüksək nüfuzu, qətiyyətli mövqeyi, dərin məlumatlılığı, peşəkarlığı bütün dünya tərəfindən qəbul edildi. Onun ölkəmizi dirçəltmək və tanıtmaq istiqamətində siyasi və diplomatik gedişlər, apardığı danışıqlar, keçirdiyi görüşlər dünya siyasətində ildırım kimi çaxdı.

Nədir müasir diplomatiyamızı səciyyələndirən?

BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının erməni qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılma tələbi, İslam Konfransı Təşkilatının Ermənistanı təcavüzkar kimi tanınması, ATƏT-in Budapeşt Sammitində münaqişənin Avropa təhlükəsizliyi çərçivəsində, Lissabon Sammitində isə konfliktin Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll edilməsi, Avropa Şurasının – Azərbaycan torpaqlarının məhz Ermənistan tərəfindən işğal olunmasının tanınması, Avropa İttifaqının -münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasıdır. Bu tələblərin yekdilliklə qəbul olunması, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda müasir Azərbaycan diplomatiyasının bir mənalı uğurlarıdır.

- Avropa Şurasında tam hüquqlu üzv olmağımız, NATO çərçivəsində "Sülh naminə tərəfdaşlıq", Avropa İttifaqı çərçivəsində "Yaxın qonşuluq siyasəti" və "Şərq tərəfdaşlıq" proqramlarına qoşulmamız, ölkəmizin Avro-Atlantika strukturlarına inteqrasiya olmasıdır.
- YUNESKO və İSESKO və bir sıra donor dövlətləri tərəfindən Azərbaycanın mədəniyyətinə və incəsənətinə böyük diqqət göstərilməsi;
- Tərəfdaş dövlətlərimizin sayının mütəmadi artması və dünyanın aparıcı dövlətləri ilə əlaqələrimizin strateji tərəfdaşlıq səviyyəsinə qalxması;
- "Bakı-Tbilisi-Ceyhan", "Bakı-Tbilisi-Ərzurum", "Bakı-Tbilisi-Qars" möhtəşəm iqtisadi layihələrin həyata keçirilməsi" ulu öndərimiz Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərlik etdikləri Azərbaycan diplomatiyasının şərəfli səhifələrindəndir.

Hörmətli toplantı iştirakçıları!

Azərbaycanın diplomatik xidməti 90 illik tarixi boyunca çox çətin və keçməkeçli yollardan keçmişdir.

1918-ci illərdə dövlətimiz Ermənistanın hücumlarına məruz qalırdı; Avropa və kommunist Rusiyası Azərbaycan neftini ələ keçirmək niyyətlərini davam edirdi, hətta ölkənin tarixi adı olan Azərbaycan sözünün rəsmiləşməsinə etiraz edənlər də tapılırdı, istər 1918-ci ildə, istərsə də Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu 1920-ci ildə düşmən qüvvələr Bakının Azərbaycanın paytaxtı olmasına maneələr yarandı, Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycana dövlətçilikdən imtina edərək kommunist Rusiyanın muxtariyyətinə çevirməsi yolunda hiylələr quruldu.

1980-ci illərdə azadlıq uğrunda mübarizə başladıqda, Azərbaycan xalqı öz haqq səsini dünyaya eşitdirməyə çalışanda Sovet rejimi və onun diplomatik xidməti buna hər yolla maneçilik törədir, öldürülən, yurd-yuvasından qovulan, torpaqlarına göz dikən xalqın səsini eşitmək istəmir və bunun dünyaya çatdırılmasına imkan verilmirdi.

Müstəqilliyimizin bərpasından sonra da diplomatiya yolumuz min bir maneələrlə, tələlərlə, hiylələrlə rastlaşmışdır. Bunun əsas səbəbi dünyanın bir çox kütləvi informasiya vasitələrində, şirkətlərində, dövlət idarələrində, elm-təhsil müəssisələrində erməni diasporunun mövqeyinin güclü olmasıdır.

Torpaqlarımızın işğal olunduğunu dünyaya çatdırarkən, Azərbaycan diplomatları yalnız Ermənistan və erməni diasporu ilə yox, həm də Ermənistana və Azərbaycana qarşı münasibətlərdə mövcud olan ikili standartlarla, işğalçı ilə işğala məruz qalanı, qatil ilə qurbanı tərəzinin eyni gözünə qoymaq cəhdləri ilə mübarizə aparır.

XX əsrin ən dəhşətli faciələrindən birinə - Xocalı soyqırımına gözlərini bağlayanların gözlərini tarixin bu qanlı səhifəsinə çevirməyə çalışırıq. Azərbaycan dövlətinin 3 min illik tarixi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti, folklorunun mənimsənilməsi oğurlanması, özgəninkiləşdirilməsi cəhdləri hələ də davam edir.

Minilliklər boyu yaratdığımız mətbəximizin, oxuduğumuz mahnılarımızın, yaratdığımız musiqi alətlərimizin, Nizaminin, Füzulimizin, Şah İsmayılımızın bizə məxsus olmadıqları iddia olunur.

Peşəkar, istedadlı, təcrübəli mütəxəssislərlə gənc kadrların vəhdətinin bariz nümunəsi olan

diplomatlarımızı, sadaladığım çətinliklər nəinki sarsıtmır, əksinə onların daha mübariz olmasını təmin edir. Ən kiçik nailiyyətin, ən xırda uğurun arxasında ölkəmizi tanıtmaq və yaşatmaq uğrunda çalışan diplomatlarımızın gərgin əməyi, əzmkar fəaliyyəti, yuxusuz gecələri, yanar ürəkləri dayanır.
Bütün bunların başında Azərbaycan Prezidenti möhtərəm İlham Əliyev tərəfindən təyin edilən xarici siyasətimizin ana xətti durur və bu siyasət Xarici İşlər Nazirliyinin rəhbərliyinin təlimatı əsasında: Mərkəz, Səfirlik və Nümayəndəliklərimiz davamlı olaraq həyata keçirilir.
Hörmətli xanımlar və cənablar,
Bu tədbir 30 il bundan əvvəl Azərbaycanda baş vermiş, tarixi əhəmiyyət daşıyan bir hadisə ilə eyni günlərə təsadüf edir. 30 il əvvəl məhz bu günlərdə ulu öndər Heydər Əliyev Azərbaycana uğurlu rəhbərliyinə görə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür. Bu fəxri adı aldıqdan sonra ulu öndərin ilk səfəri 30 il əvvəl bu günlərdə məhz Gəncə şəhərinə olmuşdur. Həmin vaxt Gəncənin 250.000 əhalisinin tam əksəriyyəti dahi rəhbəri qarşılamaq, ona olan məhəbbətini göstərmək üçün küçə və meydanlara axışmışdı.
Həmin səfər zamanı Gəncə şəhərinin adını özünə qaytarılması təşəbbüsü irəli sürülmüş və ulu öndərimizin səyləri nəticəsində bu qərar rəsmiləşdirilmişdir. O dövrdə Gəncə şəhəri Kirovabad adlandırılsa da, şəhərin bir hissəsinə rəsmi olaraq "Gəncə" adının verilməsi ilə ulu şəhərimizin tarixi adı özünə qaytarılmışdır.
Bu sadə bir inzibati dəyişiklik deyil. Tarix boyunca, Gəncənin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinə yüksək ehtiramın təzahürü idi.
Gəncənin adı qaytarılmaqla, təcavüzkar qarşısında baş əyməyən Cavad xanın, ötən əsrin 20-ci ilində bolşeviklər tərəfindən həlak olan oğulların, tarix boyu düşmənə qarşı son damla qanına qədər mübarizə aparan fədailərimizin, şəhərin zəngin ədəbi və mədəni irsini yaradan ziyalılarımızın əzəməti qaytarıldı.
1917-ci ildə Peterburqda çar hakimiyyəti devrilərkən Azərbaycanda ilk siyasi mitinq məhz Gəncədə keçirilmişdir. Gənc Nəsib Bəy Usubbəyovun təşkilatçılığı və rəhbərliyi ilə keçirilən mitinqdə "Yaşasın Azərbaycan avtonomiyası" şüarı yazılmış plakatlar qaldırılmış və bu çağırış qığılcım olaraq Azərbaycanda müstəqillik alovunu yandırmışdır. 1918-ci ilin mayında bu çağırış "müstəqil Azərbaycan dövləti" ideyası olaraq reallaşmış paytaxtımız Bakı düşmən işğalı altında olduğundan, Azərbaycan hökuməti müvəqqəti olaraq Gəncədə məskunlaşmışdır.
Gəncə tarix boyunca olduğu kimi, bu gün də Azərbaycanın fəxridir, gündən-günə sürətlə inkişaf edir. Diplomatik xidmətimizin 90 illik yubileyinin Gəncə şəhərində keçirilməsi, Gəncənin öz adına və tarixinə layiq olan gözəlliyinin və inkişafının bir daha şahidi olmaq bizi daha da fərəhləndirir.
Göstərilən qonaqpərvərliyə görə Gəncə şəhərinin İcra Hakimiyyətinin Başçısı hörmətli, cənab Eldar Əzizova və bütün gəncəlilərə öz və həmkarlarım adından ürəkdən təşəkkür edirəm.
Bu gün hörmətli Prezidentimiz cənab İlham Əliyevin uğurlu rəhbərliyi nəticəsində Azərbaycan günü-gündən çiçəklənir, əhalinin güzəranı get-gedə yaxşılaşır, ölkədə demokratiya, sabitlik və əmin-amanlıq hökm sürür, paytaxt Bakı ilə yanaşı ölkənin bütün şəhər və rayonları abadlaşır və gözəlləşir.
Dünya böhran keçirdiyi halda iqtisadiyyatımız arası kəsilmədən inkişaf edir. Avropanın enerji problemləri ilə rastlaşdığı halda bir dövrdə cənab İlham Əliyevin uğurla həyata keçirdiyi neft və qaz strategiyası bu gün Azərbaycanı Avropa enerji təhlükəsizliyinin etibarlı təminatçılarından və Avropa siyasətinin əsas iştirakçılarından birinə çevirib.
Azərbaycan Prezidenti dünyanın aparıcı siyasətçiləri ilə görüşlərində, beynəlxalq təşkilatlardakı çıxışlarında, dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə verdiyi müsahibələrində öz biliyi, təcrübəsi, peşəkarlığı, uzaqgörənliyi ilə ölkəmizi layiqincə təmsil etməkdə ,Azərbaycanın adını ucaltmaqdadır. Cənab İlham Əliyev müdrik dövlət xadimi kimi bütün dünyada tanınmaqda və qəbul edilməkdədir.
Hörmətli xanımlar və cənablar,
İcazə verin, Azərbaycan diplomatik korpusu adından mənə əziz və doğma olan Gəncədə, çıxış etmək imkanını yaratdığına görə Hörmətli Nazirimiz cənab Elmar Məmmədyarova öz təşəkkürümü bildirim!

Əziz iştirakçılar, diqqətinizə görə Sizə minnətdaram!

## Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş konfransda səfir Eynulla Mədətlinin çıxışı

Naxçıvan, 7 iyul 2009-cu il



Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin möhtərəm Sədri cənab Vasif Talıbov,
Azərbaycan Respublikasının möhtərəm Xarici İşlər Naziri cənab Elmar Məmmədyarov,

Hörmətli konfrans iştirakçıları!
Öncə xalqımızın milli rəhbəri, ulu öndərimiz Heydər Əliyevin məruzələr, çıxışlar etdiyi, bizlərə dövlətçilik sənətinin əlifbasını öyrətdiyi bu tarixi salonda mənə çıxış etmək imkanı verildiyinə görə Ali Məclisin sədrinə və xarici işlər nazirinə minnətdarlığımı bildirirəm.

Burada, bu möhtəşəm salonda 1991-1993-cü illərdə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi zaman Heydər Əliyev həm Naxçıvanı erməni işğalından qorumaq, həm də müstəqilliyinin kövrək addımlarını atmaqda olan, lakin səriştəsiz və dəyanətsiz rəhbərlərin, yad xarici qüvvələrin təzyiqi altında az qala hər şeyi itirmək təhlükəsi ilə üzləşən Azərbaycan Respublikasını fəlakətdən qurtarmaq üçün yollar axtarır, örnəklər verirdi. Eyni ilə 1918-1920-ci illərdə olduğu kimi, tarix təkrar olunurdu. Müstəqillik qazanmış ölkəmiz yenə də bir sıra bölgələrini erməni işğalından qoruya bilmirdi. Ermənilər tərəfindən şose və dəmir yolu bağlanan, elektriki, qazı, telefon rabitəsi kəsilən Naxçıvan tam blokada şəraitində ən ağır günlərini keçirirdi. Dondurucu qış gecələrində bu binanın ikinci mərtəbəsindəki soyuq iş otağında, neft lampası işığında Heydər Əliyev bütün Azərbaycan xalqını işığa çıxarmaq üçün çalışırdı. Elə Azərbaycan dövlətinin ilk xarici siyasət addımları da burada – Naxçıvanda atılırdı. Heydər Əliyev Ali Məclisin deputatlarına, alimlərə, jurnalistlərə təkidlə Naxçıvanın yaxın tarixini, Moskva və Qars müqavilələrini öyrənməyi tövsiyə edirdi. Əvvəlki tarixi təcrübələri nəzərə alaraq ölkəmizin bu qədim guşəsini qoruyub saxlamaq üçün Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə həmin ölkələrin dövlət başçıları səviyyəsində görüşlər keçirir, sənədlər imzalayır və qarşıya qoyduğu məqsədlərə nail olurdu. Heydər Əliyevin uzaqgörən siyasəti və yorulmaz səyləri ilə Qars müqaviləsi Türkiyənin və Azərbaycanın siyasi gündəminə çıxarıldı. Türkiyənin prezidenti Naxçıvana gəldi, Heydər Əliyev İran prezidentinin dəvəti üzrə Tehranda səfərdə oldu, blokadada olan Muxtar Respublikaya nəfəs verildi. Bakıda bütün bunları qısqanclıqla izləyən, hətta əngəllər yaradan qüvvələrə məhəl qoymayan Ulu Öndər öz diplomatik tədbirləri ilə erməni işğalçılarını da Naxçıvana təkrar həmlə etməkdən çəkindirirdi. Bütün bu müdrik addımlar olmasaydı, 1918-1919-cu illərdəki erməni işğalı təkrar ola bilərdi, o illərdə olduğu kimi Azərbaycan dövləti Naxçıvan bölgəsinin qorunmasında aciz qala bilərdi. Çünki tarix amansızlıqla təkrar olunurdu.

1918-ci ilin 28 mayında elan edilən Azərbaycan Xalq Cümhuriyyəti ölkənin bütün ərazisinə nəzarət edə bilmirdi. Bakı və ətrafı çoxu rus və ermənilərdən ibarət bolşevik idarəçiliyində idi. 1-ci Dünya müharibəsindən dönən minlərlə silahlı erməni-rus əsgəri Bakıda və Şirvanda qırğınlar törədirdi. Azərbaycanın Naxçıvan, Qarabağ, Zəngəzur bölgələrində qiyam və iğtişaşlar törədən ermənilər həmin bölgələri qəsb etməyə çalışırdılar. Naxçıvana İrəvandan keçən dəmir yolu və Zəngəzurdan keçən şose yollarını ermənilər bağlamışdı. Ermənistan müstəqilliyini elan edəndən bir həftə keçməmiş erməni-daşnak qüvvələri Naxçıvana basqın etdilər. Vəziyyətin çox gərgin olduğunu dəyərləndirən Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi 4 iyun 1918-ci il tarixində Osmanlı Türkiyəsi ilə Dostluq müqaviləsi imzaladı və türk qoşunlarını yardıma çağırdı. Elə həmin gün türk qoşunlarının bölükləri Naxçıvana yürüş edib erməni-daşnak qüvvələrini

vurub geri oturtdular və Naxçıvanda yerli özünüidarə hökumətinin qurulmasına yardım etdilər. Naxçıvanın xanı Cəfərqulu xan, oğlu Kəlbalı xan, qardaşı Rəhim xan və digərləri Naxçıvanı idarə etməyə başladılar. 4 avqust 1918-ci ildə İstanbuldakı Azərbaycan nümayəndə heyətinin rəhbəri Məmməd Əmin Rəsulzadə xarici işlər naziri Məhəmməd Həsən Hacınskiyə yazırdı: "Ermənilər Ənvər Paşaya xəritə və layihə təqdim ediblər. Türkiyədən Sürməlini, Naxçıvanı, Axalkələki, Eçmiadzini, İrəvanı, Azərbaycandan Qazax, Qarabağ, Zəngəzur və Ordubadı, gürcülərdən isə Borçalını tələb edirlər..."

Həmin vaxt və sonralar Naxçıvanın qorunmasında misilsiz xidməti olan türk komandanı Kazım Qarabəkir Paşa İranın şimal-qərbində İngilislərə qarşı aparılan uğurlu əməliyyatdan sonra qərargahını Təbrizdən Naxçıvana köçürdü və xalq tərəfindən böyük məhəbbətlə qarşılandı. Bundan əvvəl erməni qoşunlarına sarsıdıcı zərbələr vuran Paşa xalqın gözündə milli qəhrəman idi. Lakin 1 Dünya müharibəsinin nəticələrinə və 30 oktyabr 1918-ci il tarixli Mudros müqaviləsinin şərtlərinə görə Kazım Qarabəkir Paşa və qoşunları Naxçıvanı tərk etməyə məcbur oldular. (Kazım Qarabəkir Paşanın Naxçıvandan Qarsa yola düşən vaqon-qərargahı indi Qarsda muzeydə həmin qəhrəmanlıq tarixinin nişanəsidir. Sonralar Naxçıvanın gündoğan tərəfində Ulu Öndərin xeyir-duası ilə Kazım Qarabəkir məscidi tikildi, Kazım Qarabəkir Paşanın qızının da iştirak etdiyi açılış mərasimində Heydər Əliyev Naxçıvanın qorunmasında bu qəhrəman komandanın xidmətlərini qiymətləndirdi.)

Azərbaycan Xalq Cümhuriyyətindən siyasi və diplomatik dəstəkdən başqa ayrı yardım ala bilməyən Naxçıvan bölgəsi yerli özünüidarə rəhbərləri və Kazım Qarabəkir Paşanın tədbiri ilə könüllü olaraq ordudan istefa edib, burada qalan türk əsgər və zabitləri bölgənin aparıcı siyasi liderləri ilə birlikdə 3 noyabr 1918-ci ildə Naxçıvanda Araz Türk Hökuməti quraraq ermənilərə qarşı qeyri-bərabər ölüm-dirim savaşına girdilər və Naxçıvanı, Ordubadı, Culfanı, Şəruru, İğdırı..... erməni istilasından qorudular. Bu hökumət az sonra Qars İslam Şurası, ondan sonra isə Cənub-Qərbi Qafqaz Hökuməti adı ilə daha böyük türk ərazilərini və xalqını qorumaqda əhəmiyyətli rol oynadı. 1919-cu il aprelin 12-də yeni siyasi şəraitin tələbi ilə bölgəni himayəyə götürən Böyük Britaniya qüvvələri həmin hökumətə son qoydular və hökumət üzvlərini Malta adasına sürgünə göndərdilər.

Çox mürəkkəb siyasi şəraitdə fəaliyyət göstərsə də Naxçıvan Araz Türk Hökuməti Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə hər vəchlə əlaqə yaratmağa can atırdı. "Azərbaycan" qəzeti 09 mart 1919-cu il tarixində yazırdı: "Dünən Naxçıvandan sürət qatarı ilə Bakıya-Azərbaycan hökumətinə Türk Araz Respublikasının xüsusi missiyası gəlmişdir. Missiyaya tanınmış şair və dramaturq, öz pedaqoji fəaliyyəti ilə Bakı əhalisinə tanış olan Hüseyn Cavid də daxildir. Missiya öz hökuməti tərəfindən fövqəladə səlahiyyətlə görəvləndirilmişdir." Bu hökumətin süqutundan sonra Naxçıvan bölgəsi çox ağır siyasi təzyiq altına düşdü. Bölgəyə ayaq açan Müttəfiqlərin müxtəlif emissarları Naxçıvanı ermənilərə vermək üçün yollar axtarır, hiylələr qururdular. 1919-cu ilin mayında onların gizli xeyir-duası ilə erməni qoşunları Naxçıvan bölgəsinə hücum etdilər. Bu vaxt artıq Azərbaycan hökuməti də ciddi reaksiya verdi, Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi Xan Tekinski Ermənistan Respublikası Hökumətinə kəskin etiraz notası təqdim etdi. Xan Tekinski Azərbaycanın Baş naziri Nəsib bəy Yusifbəyliyə yazırdı: "danışılanlara görə ingilislər Şərur-Naxçıvanı ermənilərə vermək istəyirlər. Belə olsa .... xalqı dəhşətli aqibət gözləyir."

İngilislər Naxçıvanda sözdə olsa da erməni qubernatorluğu yaratdılar, lakin onun hakimiyyəti yerləşdiyi qərargahdan kənara çıxa bilmədi. Xan Tekinski xarici işlər naziri Məhəmməd Yusif Cəfərova 29 may 1919-cu ildəki məktubunda bildirirdi ki, Naxçıvanda xalq ingilislərin qurduğu erməni idarəçiliyini tanımaqdan imtina etmişdir. Naxçıvan bölgəsi ilə davamlı əlaqə qurula bilmədiyinə, həmçinin Müttəfiqlərin Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndəsinin Naxçıvana gəlməsini əngəllədiyinə görə bu bölgə barəsində məlumatlar əsasən Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistandakı diplomatik nümayəndəsi və İrandakı səfiri vasitəsilə əldə edilirdi. Azərbaycan hökumətinin başçısı Fətəli Xan Xoyskinin qərarı ilə 20 mart 1919-cu ildə İsmayıl Xan Ziyadxanov başda olmaqla İrana fövqəladə diplomatik missiya göndərilmişdi. Sonra isə onun qardaşı, xarici işlər nazirinin müavini Adil Xan Ziyadxanov İrana ilk səfirimiz olaraq göndərildi. Naxçıvan əhalisi buradakı vəziyyət barədə məlumatları həmin diplomatik missiyalarımıza çatdırırdılar. Məsələn 10 aprel 1920-ci ildə Azərbaycanın Tehrandakı Səfiri Azərbaycan xarici işlər nazirliyinə yazırdı: "Naxçıvandan və İranın müxtəlif yerlərindən aldığım

çoxlu teleqramlarda ermənilərin Naxçıvana və Ordubada hücum etdikləri, İran ermənilərinin də onlara dəstək verdiyi göstərilir... Bu barədə Tehrandakı ingilis, ABŞ və fransız səfirliklərinə bildirmişəm....Təcili tədbirlər görülməlidir".

4 iyun 1919-cu ildə Azərbaycan xarici işlər naziri Xan Tekinskiyə tapşırıq vermişdi ki, Azərbaycanın parlament komissiyası üçün keçmiş İrəvan quberniyasının müsəlman əhalisinə, Araz Türk Respublikası və Qarabağ əhalisinə qarşı ermənilərin zorakılığına dair məlumatlar toplasın. 21 iyun 1919-cu ildə Xan Tekinski Məhəmməd Yusif Cəfərova yazırdı: "Naxçıvan, Şərur, Vedibasar, Şahtaxtı erməni qoşunları tərəfindən tutulmuşdur. Naxçıvan Milli Şurası bunu Müttəfiq Komandanlığına bildirməyi və təcili tədbir görməyi xahiş edir....."

Düşmən qarşısında təklənən, Azərbaycan Xalq Cümhuriyyəti və Türkiyədən yardım ala bilməyən və erməni işğalçılarına qarşı müharibəyə başlayan Naxçıvan əhalisi İrana və Türkiyəyə nümayəndə heyətləri göndərməyi qərara aldı. Təbrizdə İran Şahzadəsinə çatdırılan məktub əsasında İran hökuməti Mirzə Əli Heyətin (Dünya şöhrətli alim-cərrah, mütəfəkkir Doktor Cavad Heyətin atası) başçılığı ilə bir heyət göndərdi ki, ermənilərlə əlaqədar vəziyyəti öyrənib hökumətə məruzə etsin. Nəticədə İran dövləti ermənilərlə danışıb onları işğalçı hərəkətlərdən çəkindirmək üçün İrəvana nümayəndələr göndərdi. Qeyd edilməlidir ki, ümumən Azərbaycan Xalq Cümhuriyyətinə münasibətdə İranın mövqeyi müəmmalı idi. İran əvvəlcə tanımamaq siyasəti yeridirdi. Məhəmməd Əmin Rəsulzadə 1918-ci il sentyabrın 6-da yazırdı ki, istiqlal bəyannaməsini İstanbuldakı İran konsulluğuna göndərəndə belə cavab alınmışdı: "Biz Azərbaycan adlı müstəqil dövlət tanımırıq......"

Sonra İran bu mövqeyi dəyişməli oldu. Parisdə Versal konfransında Azərbaycan adına etiraz bildirdi, sonra ərazi iddiaları etdi, 1919-cu ilin payızında isə Bakıya fövqəladə Qafqaz heyəti göndərərək Azərbaycanla bir konfederasiya qurmaq təklifi irəli sürdü, lakin sonra reallıqla barışdı və 1920-ci ilin aprelində Azərbaycanı tanıyaraq dostluq müqaviləsi bağladı. Sovet işğalı ilə əlaqədar Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi və bu sənəd təsdiqlənə bilmədi.

Naxçıvan əhalisinin digər nümayəndə heyəti isə Türkiyəyə keçib Ərzurumda işə başlayacaq konfransda Naxçıvanın vəziyyətini bildirməli idi. Bu zaman artıq yeni Türkiyənin yaranmasının binası qoyulurdu. 19 may 1919-cu ildə Samsuna, oradan da Kazım Qara Bəkir Paşanın dəvəti ilə Ərzuruma gələn Mustafa Kamal Paşa 23 iyul – 07 avqust 1919-cu il tarixlərində Ərzurum Konqresində Türkiyənin nicatını planlarkən Ərzuruma yetişə bilməyən heyətin Qarsdan teleqrafla göndərdiyi Naxçıvan əhalisinin konfransa müraciətini Kazım Qarabəkir Paşa ilə müzakirə etmiş və Naxçıvanı necə qurtarmaq barədə məsləhətləşmə aparmışdı.

Bu arada isə Naxçıvanda xalqın qəhrəman mübarizəsi ilə ermənilər bölgədən çıxarıldı. Naxçıvanda əvvəl İngilis, az sonra isə Amerikan general-qubernatorluğu yaradılmışdı. Lakin felən hakimiyyət Cəfərqulu xanın başçılığı ilə Naxçıvan Milli Şurasının əlidə idi. Buna baxmayaraq, erməni təhlükəsi hələ də sovuşmamışdı. 1919-cu ilin əvvəllərindən Naxçıvan bölgəsi ilə epizodik əlaqələr saxlayan və buradakı baş verən hadisələrə təsir edə bilməyən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 26 oktyabr 1919-cu ilin tarixində Səməd bəy Cəmillinskini Naxçıvan bölgəsinə general-qubernator təyin etdi. Naxçıvandakı ABŞ qubernatorluğu ləğv edildi, polkovnik Delli isə bir müddət Azərbaycan qubernatorunun yanında nümayəndə kimi qaldı.

Mustafa Kamal Atatürklə müzakirələrdən sonra Kazım Qarabəkir Paşa türk zabitlərindən bir neçəsini ordudan fərari etmiş kimi göstərməklə gizli şəkildə Naxçıvana göndərdi və onlar bu sahədə çox səmərəli işlər gördülər. Sonra isə O, 1920-ci ilin martında Naxçıvana rəsmi şəkildə türk bölmələri göndərdi. İki tabor kimi təşkil olunan bu qüvvələr həm yerli özünümüdafiə qüvvələrinin hazırlanmasında, həm də Naxçıvanın müdafiəsində fəal iştirak etdilər. Kazım Qarabəkir Paşa general Veysel Unuvəri bu hissələri təftiş üçün Naxçıvana göndərdi, sonra isə ümumən Naxçıvanda qalıb onlara rəhbərlik etməyi ona həvalə etdi. 28 iyun 1920-ci ildə Naxçıvanı Sovetlər işğal edəndə yeni təhlükə yarandı. Çünki bolşeviklərin siyasəti də Naxçıvan bölgəsini ermənilərə vermək idi. Bu planı pozmaq, Naxçıvanın Azərbaycanla birləşməsini təmin etmək üçün Kazım Qarabəkir Paşa rusların təkidinə baxmayaraq daha 8 ay həmin türk taborlarını Naxçıvanda saxlatdı. Məqsəd Naxçıvanın taleyi üçün tam siyasi təminat almaq idi. Yeni Türkiyənin diplomatiyası Azərbaycana dəstək verir, Naxçıvan məsələsinin Moskva müqaviləsinin əsas bəndlərindən birinə çevrilməsinə çalışırdı. Sonralar yazdığı "Bolşeviklərlə səkkiz ay birlikdə" xatirələr kitabında general Veysəl Ünüvər azərbaycan türkləri ilə çiyin-çiyinə erməni işğalına qarşı mübarizələrini ətraflı təsvir etmişdir.

Nəticədə 16 mart 1921-ci ildə Moskvada Rusiya ilə Türkiyə arasında, 13 oktyabr 1921-ci ildə isə Türkiyə ilə Azərbaycan, Ermənistan və Gürcüstan arasında Rusiya nümayəndəsinin iştirakı ilə bağlanmış müqavilələrlə Naxçıvanın Azərbaycanın tərkibində qalması və muxtar statusa malik olması, Naxçıvanın taleyi ilə bağlı təhlükə yarandıqda isə Türkiyənin təminatçılığı məsələsi birdəfəlik həllini tapdı. Qeyd etməliyik ki, böyük Mustafa Kamal Paşanın və Türkiyənin şərq ordusu komandanı Kazım Qarabəkir Paşanın Azərbaycanın milli maraqlarına, ərazi bütövlüyünə verdikləri dəstək Sovet Azərbaycanı hökumətinin başçısı Nəriman Nərimanov tərəfindən yüksək qiymətləndirildi. Həmin ilin dekabrında Nəriman Nərimanov Azərbaycan hökuməti adından onlara minnətdarlıq məktubu və gümüşdən hazırlanmış yemək-çay-kofe dəstləri göndərdi. Kazım Qarabəkir Paşa öz xatirələrində bunu məmnunluqla qələmə almışdır.

Hörmətli konfrans iştirakçıları, indi ermənilərin tanımadığı Qars müqaviləsinin imzalanmasından 88 il ötsə də erməni iddiaları heç də dəyişməmişdir. Qarabağ və digər işğal edilmiş torpaqlarımız hələ qaytarılmamışdır, erməni fitnələri isə davam edir, yenə Naxçıvana iddialar qaldırılır. Naxçıvanın blokadası hələ aradan qalxmamışdır. Belə bir şəraitdə, eyni ilə 1918-1920-ci illərdəki kimi, Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiəsi ən mühüm ümumölkə əhəmiyyətli məsələdir. Xoşbəxtlikdən ulu öndər Heydər Əliyevin Naxçıvanı qorumaq və inkişaf etdirmək siyasəti bu gün Muxtar Respublika Ali Məclisinin rəhbərliyi tərəfindən prinsipiallıqla və əzmlə davam etdirilir. Bu siyasət nəticəsində bu gün həm Muxtar Respublikanın etibarlı müdafiəsi təmin edilmiş, həm də Naxçıvanın sənayesi, kənd təsərrüfatı, təhsili, səhiyyəsi, mədəniyyəti, bir sözlə həyatın bütün sahələri yüksək inkişaf yoluna çıxarılmışdır. Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev ölkəmizin bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikasının da inkişafına böyük diqqət verir, ulu öndər Heydər Əliyevin siyasətini dönmədən həyata keçirir. Bu gün Naxçıvan şəhərində və Muxtar Respublikanın digər şəhər və rayonlarında gördüyümüz inkişaf və mədəniyyətdən qürur duyaraq Muxtar Respublikanın rəhbərliyinə, bütün zəhmətsevər Naxçıvan əhalisinə bundan sonra da quruculuq nailiyyətləri arzulayıram, hörmətli həmkarlarımı və ölkəmizin ictimaiyyətini Azərbaycan diplomatik xidmətinin 90 illiyi münasibəti ilə ürəkdən təbrik edirəm.

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

## Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığındakı səfiri Elman Araslının Azərbaycan Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş mərasimdə çıxışı

Bakı, 9 iyul 2009-cu il



Hörmətli cənab Nazirlər,
Dövlət qurumlarının rəhbərləri,
Səfirlər, Qonaqlar,
Xanımlar və cənablar,

Bu gün xalqımızın tarixində əlamətdar hadisə olan Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 90 illik yubileyinə həsr olunmuş mərasimdə söz deməyi özüm üçün böyük şərəf sayır bu imkanı yaradanlara dərin təşəkkürümü bildirir və Azərbaycan Respublikası Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici siyasət kursunun həyata keçirilməsini təmin edən bütün həmkarlarımı bu tarixi gün münasibətilə ürəkdən təbrik edirəm.

Qədim və dinamik keçmişə malik Azərbaycan xalqının diplomatiya tarixi illərlə deyil əsrlərlə ölçülür. Yerləşdiyi coğrafi məkanın strateji geosiyasi əhəmiyyəti və zəngin təbii sərvətləri böyük siyasət oyunçularının ölkəmizə münasibətdə həmişə xüsusi marağına səbəb olmuşdur. Məhz bunun nəticəsində, milli maraqlarımızın keşiyində duran Azərbaycan diplomatlarının peşəkarlığının cilalanmasına, çeviklik və balans hissi kimi mühüm keyfiyyətlərə yiyələnməsinə daima böyük ehtiyac duyulmuşdur.

Şərqin ilk demokratik dövləti olan Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Azərbaycan diplomatiyası çoxsaylı nailiyyətlər əldə etmiş, Respublikanın beynəlxalq aləmdə tanınması və güclü siyasi-mənəvi təzyiqlərə tab gətirərək ayaq üstə dura bilməsi, eyni zamanda xarici siyasətin sülhpərvərlik və humanistlik ideyalarını rəhbər tutaraq həyata keçirilməsi istiqamətində mühüm işlər görmüşdür.

Odur ki, biz bu gün Azərbaycan Demokratik Respublikasının diplomatiya sahəsindəki fəaliyyətini ehtiram və qürur hissi ilə yad edir və onu müasir xarici siyasətimizin uğurlarının başlanğıc mərhələsi kimi qiymətləndiririk.

Diplomatiyamızın müasir tarixinin ən məsuliyyətli sınağı SSRİ-nin süqutundan sonra olmuşdur. Bu zaman dünya siyasi və iqtisadi sistemində, habelə Azərbaycanın yerləşdiyi regionda baş verən köklü dəyişikliklər, yaranmaqda olan yeni formasiya, ictimai-siyasi vəziyyət Azərbaycan diplomatiyasından qətiyyətli və çevik olduğu qədər tarazlaşdırılmış qərarlar tələb edirdi. Aydındır ki, müstəqil, siyasi və iqtisadi cəhətdən özünü təmin edəcək bir dövlətin qurulması çox çətin prosesdir. Bu baxımdan, Azərbaycandakı vəziyyət SSRİ-nin çökməsi ilə tənəzzülə uğramış iqtisadiyyat, Ermənistanın təcavüzü, siyasi-ideoloji boşluq, ordu sıralarında mövcud olan problemlər, vətəndaş qarşıdurması qorxusu və bu kimi başqa amillərlə son dərəcə gərginləşmiş və ciddiləşmişdi. Yaranmış bu ağır durum güclü nüfuza, siyasi dühaya və dərin analitik təfəkkürə malik milli rəhbərə ehtiyac yaratmışdır və Azərbaycanın tarixinin bu taleyüklü anında həmin ulu öndər Heydər Əliyev olmuşdur. Bu gün dönüb o illərə nəzər saldıqda Heydər Əliyev dühasının bəhrəsi olan müasir Azərbaycanın inkişaf kursunun mahir siyasi xadim, böyük diplomat tərəfindən müəyyən edildiyi daha aydın görünür.

Prezident İlham Əliyev tərəfindən uğurla davan etdirilən Azərbaycan Respublikasının xarici siyasət kursu özünün tarazlığı, dinamikası və əhatə vüsəti ilə seçilir. Müstəqilliyimizi qazandığımız vaxtdan indiyədək ötən müddət ərzində dövlətçiliyimizin, suverenliyimizin və ərazi bütövlüyümüzün möhkəmləndirilməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və Ermənistanın təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycan dövlətinin münaqişəsiz və təhlükəsiz mühitdə mövcudluğunu təmin etmək üçün əlverişli beynəlxalq vəziyyətin yaradılması yönündə çox mühüm addımlar atılmışdır.

Təbiidir ki, qeyd edilən məsələlərin icrası üçün Azərbaycan Respublikasının güclü milli diplomatik

xidmət orqanlarının yaradılması və tam fəaliyyət göstərməsi zəruridi. Fərəhli haldır ki, Respublika rəhbərliyinin müdrikliyi və yorulmaz səyləri ilə Azərbaycan buna çox qısa müddət ərzində nail ola bildi. Bu istiqamətdə həqiqətən də çox mühüm işlər görülmüş, müvafiq qanunverici baza yaradılmış, az bir müddətdə xarici ölkələrdə 60-a yaxın diplomatik nümayəndəliklərimiz təsis edilmiş, diplomatiya sahəsində milli kadrların hazırlanması üzrə ixtisaslaşmış elm-təhsil ocağı fəaliyyətə başlamışdır. Bütün bunlar effektiv xarici siyasət kursunun gələcəkdə də həyata keçirilməsinin təmin edilməsinə, ardıcıllığın əmələ gəlməsi və ənənələrin zənginləşməsi son nəticədə isə dövlətçiliyimizin möhkəmlənməsi və milli maraqlarımızın qorunması üçün güclü və sağlam zəmin yaratmışdır.

Xanımlar və cənablar,

Müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin başlıca xarakterik cəhəti onun tarazlı və çox-vektorlu olmasında, müasir beynəlxalq aləmdə mövcud vəziyyətin milli maraqlarımız baxımından dəyərləndirilərək buna uyğun hərəkət edilməsidir. Respublika rəhbərliyinin şəxsi səyləri nəticəsində Ermənistan istisna olmaqla Rusiya və keçmiş SSRİ respublikaları ilə münasibətdə toplanmış nəhəng potensial və təcrübə qorunub saxlanmış və müstəqillik şəraitində yeni məna kəsb edərək daha da dolğunlaşmışdır. Eyni zamanda, ABŞ və Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda yüksək səviyyəli əlaqələrin qurulmasına nail olunmuşdur. Respublikamız avroatlantika tərəfdaşlıq strukturlarına və təhlükəsizlik sisteminə inteqrasiya siyasəti həyata keçirməklə bərabər post-sovet məkanından İslam Konfransı Təşkilatına tamhüquqlu üzv qəbul edilmiş ilk dövlətdir. Diplomatiya sahəsində topladığım yarıməsrlik təcrübəyə əsaslanaraq tam məsuliyyətlə bildirirəm ki, bu gün Azərbaycan dünya dövlətləri tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur və Respublikamızla bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələr qurulur. Bütün bunlar xarici siyasətimizin uğurları olmaqla yanaşı xalqımızın firavan gələcəyinə yönəlmiş müdrik siyasətin təzahürüdür.

Hörmətli tədbir iştirakçıları,

Sözümün sonunda, Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 90 illik yubileyinin və diplomatik xidmət əməkdaşlarının peşə bayramının belə təntənəli surətdə qeyd edilməsinə və tədbirlərin yüksək səviyyədə təşkil edilməsinə imkan yaratmış Azərbaycan Respublikası rəhbərliyinə, Xarici İşlər Naziri cənab Elmar Məmmədyarova və onun müavinlərinə, tədbirlərin hazırlanması və həyata keçirilməsində iştirak etmiş bütün şəxslərə öz dərin təşəkkürümü bildirir və hamınızı bir daha ürəkdən təbrik edirəm.

Diqqətinizə görə minnətdaram.

AZƏRBAYCAN DİPLOMATİYASININ 90 İLLİYİ - 90TH ANNIVERSARY
OF AZERBAIJAN'S DIPLOMACY - 90 ЛЕТИЕ ДИПЛОМАТИИ АЗЕРБАЙДЖАНА

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi münasibətilə Bakıdakı Diplomatik Korpusun duayeni Nikolae Urekenin çıxışı**

Bakı, 9 iyul 2009-cu il

Hörmətli Nazir Elmar Məmmədyarov,
Hörmətli Nazir müavinləri,
Hörmətli Səfirlər və həmkarlar,

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi münasibətilə bu gün burada Azərbaycan diplomatları və Bakıdakı diplomatik korpusun üzvləri qarşısında çıxış etməkdən böyük məmnunluq və şərəf duyuram.

Bu, Azərbaycan Diplomatik Xidməti və Azərbaycan diplomatları ilə bağlı fikir və hisslərimi ictimaiyyətə bildirmək üçün çox yaxşı imkandır. Zənnimcə, Azərbaycanda 5 illik fəaliyyət müddətimdən sonra mən rəyimi bildirmək üçün müvafiq mövqedəyəm. Bu gün mən Bakıdakı Diplomatik Korpusun duayeniyəm və bu, mənə müəyyən fikirlərimi ifadə etməyə əla imkan verir, digər xarici səfirlərin də bu fikirlərimə şərik olacağına ümid edirəm.

Son beş ildə Bakıda xarici səfirliklərin sayının artdığını müşahidə etmişəm. Bu, Azərbaycan Respublikasının beynəlxalq arenada rolunun gücləndirilməsinin birbaşa nəticəsidir. Getdikcə daha çox ölkələr hər iki tərəfin qarşılıqlı maraqlarına müvafiq olaraq ikitərəfli əlaqələrə yardım etmək məqsədilə Bakıda səfirliklər açmağın öz maraqlarına müvafiq olduğu qənaətinə gəliblər. Hal-hazırda bütün mühüm regional və beynəlxalq təşkilatların nümayəndəlikləri ilə yanaşı, bütün qitələrdən olan 40-dan çox dövlətin Bakıda diplomatik nümayəndəliyi var. Bakıda çox olmayan, lakin dinamik və çox peşəkar olan diplomatlar Azərbaycan xalqının dostcasına münasibəti ilə qarşılaşır. Bakıda öz missiyasını sona çatdıran xarici diplomatların əksəriyyəti bu ölkəni tərk etməli olduqlarından səmimi olaraq təəssüflənirlər.

Bu mənim şəxsi fikrimdir ki, ümumi mühitə, intensiv siyasi, sosial, iqtisadi və mədəni fəaliyyətlərə görə Bakı diplomatik fəaliyyətlər üçün çox yaxşı yerdir. Eyni zamanda, geostrateji mövqeyi və enerji təhlükəsizliyi ilə bağlı Azərbaycan Respublikasının əhəmiyyəti ikitərəfli əlaqələri inkişaf etdirmək üçün fəaliyyətimizə daha da təkan verir. Bakı eyni zamanda regional inkişafı müşahidə etmək üçün çox yaxşı imkanlar təklif edir.

Biz, xarici diplomatlar, eləcə də bu ölkədə olan bütün digər müəssisələr və təşkilatlar Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin yardımı olmadan öz vəzifələrimizi müvafiq şəkildə icra edə bilmərik. Xarici İşlər Nazirliyi ilə, demək olar ki, gündəlik işlədiyimə görə Azərbaycan diplomatlarının yüksək peşəkarlığını, bacarıqlarını və bu bacarıqları təkmilləşdirmək cəhdlərini müşahidə etmək imkanım olub. Bu baxımdan, yaşlarından asılı olmayaraq diplomatlara daima təlim keçilməsi böyük əhəmiyyət daşıyır.

Əlbəttə, Azərbaycanda fəaliyyət göstərdiyim beş ildə ölkə və xalq, yerli şərait və ənənələr haqqında daha çox öyrənmək üçün yaxşı imkanlar olub. Ölkənin çox yüksək səviyyədə iqtisadi inkişafı həqiqətən çox dərin təəssürat doğurur. Dəyişikliklər o qədər böyükdür ki, Azərbaycan və xüsusilə Bakının 2004-cü ildə olduğundan çox fərqləndiyini deyə bilərəm. Lakin gözəl Azərbaycan xalqı əvvəl olduğu kimi yenə də çox istiqanlı, qonaqpərvər və çox dözümlüdür.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi kimi belə xoş mərasim Azərbaycan Respublikasının Diplomatik Xidmətinə təbriklərimi çatdırmaq üçün mənə yaxşı imkan verir.

Hörmətli Nazir Məmmədyarov,

Bakıdakı diplomatik korpus adından, xarici səfirlər və diplomatların təşkil etdiyi bu qrupunun duayeni kimi Sizi və həmkarlarınızı, əslində bizim həmkarlarımızı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin 90 illik yubileyi münasibətilə təbrik etməkdən məmnunluq duyuram və hamınıza yeni uğurlar, möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Bu gün bayramdır, Azərbaycan Respublikası Diplomatik Xidmətinin bayramıdır, lakin mən Nazirliyin 100 illik yubileyində burada olmayacağımdan təəssüfləndiyimi bildirirəm.

Hörmətli həmkarlarım,

Bu qısa çıxışımın sonunda ilk qədəhi Nazir Məmmədyarovun və Azərbaycan Diplomatik Xidmətinin şərəfinə qaldırmağı təklif edirəm və Azərbaycanlı həmkarlarıma təbriklərimi çatdırıram.

## MƏQALƏLƏR - ARTISCLES - СТАТЬИ

# AZERBAIJAN AND ARABIAN GULF REGION COOPERATION: PERSPECTIVES AND OPPORTUNITIES

**Shahin ABDULLAYEV***

In geostrategic terms the Arabian Gulf region that encompasses the member states of the Gulf Cooperation Council -Bahrain, Kuwait, Oman, Qatar, Saudi Arabia and the United Arab Emirates - is considered one of the most important areas of world politics and economy. Without any doubt presence of huge oil and gas reserves and region's indispensible role in global energy security are among the key factors determining the geopolitical predominance of the Gulf.

The Arabian Gulf contains two-thirds of the world's proven oil reserves, produces more than one quarter of total world oil production and supplies nearly one-third of total world consumption. With the growing demand for oil around the world, Gulf countries share of oil production and supply in ratio to total world consumption is projected to increase further in the years to come.

In parallel to oil, the growing need for gas equally suggests for continued importance of Gulf in providing global energy security. Rising energy demands leave the Gulf region as the only one in the world with significant spare capacity to meet growing demand and substantiate having in place security mechanisms and structures to ensure safe and sustainable delivery of energy resources of the region to the world market through the Strait of Hormuz.

Since long with strong military presence and special relations with the countries of the region, United States has demonstrated the vitality of the region for its national security interests. The recent move by France to open a naval base in the region is another testimony to the growing western commitment to the security of the region in the light of tense Iranian-western relations and developments evolving around the alleged nuclear programme of Iran.

However, geopolitical and geo-economical importance of the region can not and should not be only confined to the fact of presence of huge hydro-carbogen resources. It should not be omitted that the region had been a vital commercial mediator between the Indian Ocean and eastern coasts of the Mediterranean via land caravan for centuries. Before the discovery of oil trade based on the integration of desert and maritime life, ship building and pearl diving, among other things, were highly developed in the Gulf. British physician Edward Ives in his book was writing about his journey from Kuwait to Aleppo with one of the caravans which comprised 5000 camels. And British Political Resident in the Gulf in the XIX century wrote about annual exports from Kuwait to Bombay with 30 boats each with an average 100 tons capacity.

Nowadays building on the centuries old best traditions and trade culture of their ancestors, the Gulf countries are being transformed into one of the leading business centres of the world. Alongside with the wider modernization of the Gulf economies and their increasing openness, cities around the Gulf have established themselves as major centres of banking, insurance and investment activity.

According to the International Monetary Fund (IMF) estimation, the cumulative current account surplus since 2003 reached $700 billion in 2007 in the Gulf countries. And conservative calculations indicate that assets of Gulf States in foreign countries were

* Ambassador of the Republic of Azerbaijan to the State of Kuwait

around 2 trillion USD in 2001. And current global financial and economic crisis has turned Sovereign Wealth Funds potential of the Gulf countries a very welcome source of financial assistance within the framework of the G20 discussions.

Meanwhile, the geographic position of the region in the heart of the strategic shipping routes should also be kept in mind, while determining the geopolitical weight of the region. Between Atlantic and Indian Oceans, region as a focal sea hub plays a key role for international trade. 30 billion worth of projects are currently underway aimed at strengthening further the maritime port capacities of the region. Among the biggest projects are the new Mesaieed Port and Ras Laffan port, both in Qatar; Saudi Arabia's King Abdullah Economic City port; Abu Dhabi's Khalifa Port and Industrial Zone and new container terminal and deepwater port of Bubiyan in Kuwait. With the increasing threat of sea piracy importance of the region acquires new dimensions in providing maritime security and freedom of movement in the blue waters. As the political situation in Iraq becomes more tranquil and with the possibility of greater economic interaction with the regional countries, trade and commerce in the region is projected to boost further.

The growing wealth of the Gulf States and their geopolitical significance are being evolved into the political influence in an increasingly globalized and multi-polar world. As an oasis of stability and development surrounded by the hotspots of conflicts and wars, Gulf States have long since been active as regional players mediating in numerous trouble spots in the Middle East and beyond and promoting inter-cultural and inter-civilizational dialogue. It should also be highlighted that GCC countries with their dedicated development agencies under the umbrella of Arab National and Regional Development Institution are the generous net contributors to the international humanitarian and sustainable development efforts around the world. For instance, the rate of Kuwaiti aid to its GDP reached more than 8 % in some years, compared to 0.35 % from the developed countries during the last three decades. In some years Kuwaiti subsidies were 27 times more than that of industrial countries.

Azerbaijan, historically being part of the Islamic world and sharing the progressive heritage and spiritual values of the Islamic civilization, since regaining its independence has been attaching utmost importance on enhancing its relations with the Islamic world and Gulf countries. It is worth noting that Azerbaijan's determination for closer ties with the Gulf States has been reciprocated with the same level of warmness and enthusiasm from the countries of the region.

The Gulf countries have been on the side of Azerbaijan to support it during the difficult economic and political situation inherent to the early years of its independence. Unequivocally supporting independence, sovereignty and territorial integrity of Azerbaijan, the Gulf States are continuously condemning in stronger terms the aggressive policy of Armenia against Azerbaijan either on bilateral or multilateral levels. In the beginning of 90s the Gulf States political support has also been very instrumental to develop consolidated policy of Islamic Ummah on Armenia-Azerbaijan Nagorno-Karabakh conflict within the Organization of Islamic Conference, which strongly deplores aggression of Armenia against Azerbaijan and ethnic cleansing policy of Armenia in the occupied territories in all its high level decisions and statements. It should particularly be mentioned that the biggest country of region Saudi Arabia does not maintain any political relations with Armenia due to its policy of aggression against Azerbaijan.

When some western countries put unfair ban for certain cooperation with Azerbaijan, because of its policy of halting any economic ties with an aggressor Armenia, the Gulf countries, particularly Saudi Arabia, Kuwait and Qatar had been continuing their unconditional aid to Azerbaijan to alleviate humanitarian situation of the refugees and internally displaced persons.

The resolution presented by Azerbaijan at the 62d session of the UN General Assembly on situation in the occupied territories of Azerbaijan and voting results of Gulf countries is an another testimony to the unwavering support of Gulf states for territorial integrity and sovereignty of Azerbaijan.

From its part Azerbaijan spared no efforts to render its political support for the countries of the region and other Arab countries, which have also been faced with the territorial problems and occupation. In solidarity with the Islamic Ummah Azerbaijan supports

Arab Peace Initiative and brotherly people of Palestine and their efforts to achieve peace, stability, and establishment of a sovereign and independent Palestinian state, with Al-Quds as its capital.

However, complementary to highly mature political relations, there is a need and enormous potential for economic cooperation between the region and Azerbaijan. The current level of trade turnover between the Gulf States and Azerbaijan neither matches to the level of political relations, nor can satisfy us. Taking into account enormous investment capabilities of the region and favourable investment climate of Azerbaijan, through exchange of business visits, focused business forums, market researches and joint exhibitions efforts should be redoubled to stimulate further economic cooperation.

Within the domain of economic cooperation, particular emphasis should be placed on agriculture and tourism sectors. In the light of growing food security problems and Gulf States dependence on food products imports, with the wide variety of agriculture and diary products, Azerbaijan can be reliable and sustainable partner of the Gulf for agro-products exports.

According to Arab Tourism Organization statistics the region occupies a leading position in per-capita spending on tourism. Only Kuwaitis annual spending for tourism is amounted for more than 5 billion USD. It is also one of the few regions in the world where 80 percent of the population with high spending capacities go for tourism abroad. Taking into account growing interest of the tourists from the Gulf States for new touristic destinations, geographical, religious and cultural proximity between the Gulf and Azerbaijan, including whole touristic package of Azerbaijan combining sea, mountains, forests, art, culture, history and shopping there are ample opportunities to turn Azerbaijan into the favourable touristic spot for tourists from the Gulf.

Meanwhile, given the central role of Azerbaijan in restoration of ancient Silk Way and development of North-South transport corridors and Gulf regions importance as a sea hub, cooperation in the field of transportation deserves further attention and analyses. Plans of GCC countries to develop internal railway system and discussions between GCC and Turkey on railway connection and construction of Baku-Tbilisi-Akhalkalaki -Kars railway provide clues for serious consideration of possibilities on linking Central Asia and South Caucasus with the Gulf in the perspective future via railways.

Last but not least further efforts need to be taken in the field public diplomacy to promote public awareness and knowledge among the wider publics of Gulf States and Azerbaijan and enhance people-to-people contacts with a particular emphasis on the youth exchange projects.

Owing to the strong political will and dedication of Azerbaijan and Gulf States to furthering the existing ties, the perspectives seem much brighter than ever before to conquer new horizons in our mutually beneficial cooperation.

# A PERSONAL ACCOUNT OF THE UNITED NATIONS SECURITY COUNCIL. REMINISCENCES OF A PARTICIPANT

**Erdos ANDRE***

The Security Council is a particular body in the United Nations. Its nature, composition, and working mechanisms are closely linked to the situation that prevailed at the end of World War II. In fact, contrary to all the other bodies of the world organisation, the principle of sovereign equality does not apply in the Council. Each of the five permanent members has the right to block the adoption of any substantive – not procedural – motion, while the now ten non-permanents who are elected for a two-year period do not enjoy such prerogatives. The Council is also a very special organ as its resolutions concerning the maintenance of international peace and security – adopted only with the approval of all the permanent members or without the formal opposition of any of them – are binding on all UN member States by virtue of international law.

Out of the total UN membership of 192 States, the ten non-permanent seats in the Council are shared presently by 187 member States, according to a quota system based on the five regional groups structure at the UN. The Eastern European regional group, which includes countries of Central Europe and some of the post-Soviet space, has one seat in that body. If any of those 187 countries wish to win a two-year membership in the Security Council, either as regionally endorsed or as individual, „independent" candidates, they have to conduct an effective and convincing electoral campaign and lobby on official and personal levels, both within their group and the UN membership at large, in order to prove that they are ready and able to make a useful contribution to the work of the Council.

As mentioned, a country can run for Security Council membership as a regional candidate, endorsed by the whole group. That is the best scenario. Or it can try to win the elections to the Council as an individual candidate, competing with others, the regional group being unable to settle for one collectively favoured candidate. That is a tougher endeavour, since a self-proclaimed candidate cannot present itself as the regions's choice and has to assert its ambition on its own in the four corners of the world, vis-a-vis all the other UN member States.

The collective choice of a regional group for a given country to be its representative in the Council does not necessarily reflect the chosen State's democratic credentials and good governance. This is how, towards the end of the 80's, the Eastern European group had the doubtful wisdom of selecting Ceausescu's Romania as its endorsed candidate for Security Council membership. There were other cases, too, when countries the presence of which, to say the least, did not enhance the credibility of the Council, managed, with the endorsement of their regional groups, to land in that body. One of the most spectacular and lamentable examples in case was the selection in 1994 of crisis-ridden Rwanda for Council membership by the African regional group.

When D-Day arrives and the General Assembly sets down to vote, inevitably, a candidate country's prestige is involved. The performance is measured usually by the number of supporting votes that country gets. As mentioned above, if you are entering this procedural battle strong with the endorsement of your regional group, you can be certain, as a rule, of the other groups' general support. However, if you decide to wage a solitary fight on your own, alongside several other competing candidates from within your own regional group, to get the nomination of the General Assembly, then what is at stake is whether you can get the required two-thirds of the votes cast, a necessary minimum to declare victory. Experience shows how all sorts of sentiments, attitudes, sympathies or the lack thereof, and other miscellaneous factors can impact the voting behaviour of a given delegation. Honestly, diplomats from those five States which enjoy a permanent presence

* Ambassador, Former Head of Permanent Mission of Hungary to the UN

on the Council cannot possibly experience that special feeling which comes at the end of a long and tiresome lobbying campaign and a tense voting session in the General Assembly, bringing for some the delightful taste of having successfully acquired a two-year attendance in the Security Council.

In the course of the past decades, the Security Council had turned into a closed, exclusive club. Its working methods were characterised by anything but openness and transparency. Furthermore, the Council's real activity was and still is conducted – quite understandably - behind closed doors, in so-called informal consultations, and not in the mostly pre-arranged public meetings, choreographed in advance and well-known from TV screens by the public around the world. This is where the real discussions take place, where arguments and counter-arguments confront each other and the general outlines of texts of future resolutions, the result of meticulous drafting exercises, do emerge. In the extremely tiny room of the informal consultations, just opposite the well-known spacious Security Council hall, one can hardly hear advancely prepared speeches, those who take the floor usually make off-the-record spontaneous impromptu observations, present their opinions off-the-cuff and react politely but without complacency to contradicting views heard around the table.

Nowadays, though, some notable, mainly procedural changes have been introduced in the way the Council goes about its business. These had been made possible by the dramatic geopolitical changes that took place some twenty years ago. When my country first got elected to the Security Council for the 1968-69 term on behalf of a then much smaller Eastern European group ( three Soviet members: the USSR, Ukraine, Belorussia, plus the German Democratic Republic, Poland, Czechoslovakia, Hungary, Romania and Bulgaria ), East-West relations were undergoing a rather hectic and difficult period with, on the one hand, the military intervention of the Warsaw Pact countries in Czechoslovakia and, on the other, the beginning of what became known as détente, a thaw in East-West relations, incarnated by the Helsinki process. All in all, in those times of the Cold War, Hungary's possibilities in the Council were limited by that world order and reflected a rigid bipolar status quo. There was no question to contemplate a reform of the United Nations, let alone one of the Security Council.

